# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 17 (1362), 27 - 30 aprel 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*


## *Avropa Gimnastika İttifaqının prezidenti Fərid Qayıbovdan*

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Avropa Gimnastika İttifaqı adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

On beş illik prezidentliyiniz dövründə idman sahəsi də daxil olmaqla, sosial-iqtisadi, təhsil, mədəniyyət və başqa sahələrdə bir çox uğurlar əldə edilib.

Ötən illər ərzində Azərbaycan idmanın müxtəlif növləri üzrə beynəlxalq yarışların keçirildiyi məkana çevrilib. Azərbaycan birinci Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları kimi bir çox mötəbər idman tədbirlərinə yüksək səviyyədə ev sahibliyi edib. Həmin dövrdə ölkəmizdə bir sıra möhtəşəm idman obyektləri istifadəyə verilib.

Sizin dəstəyinizlə inşa olunmuş Milli Gimnastika Arenası təkcə Azərbaycan milli komandasının gimnastlarını və məşqçilərini deyil, idmanın bu növü üzrə Bakıda keçirilən təlim-məşq toplantılarının və beynəlxalq yarışların iştirakçılarını heyran qoyub. Bu arena indiyədək Avropa miqyasında gimnastika üzrə 6 yarışın yüksək səviyyədə keçirilməsinə imkan yaradıb.

Dünya kubokları və çempionatları, digər beynəlxalq tədbirlərlə yanaşı, Azərbaycan üç dəfə (2007-ci, 2009-cu və 2014-cü illərdə) Ritmik Gimnastika üzrə Avropa Çempionatına ev sahibliyi edib. Bu günlərdə batut, ikili mini-batut və tamblinq üzrə ən güclü gimnastlar Bakıda keçirilən 26-cı Avropa Çempionatına qatılıblar. Bu çempionat 2018-ci ildə Argentinada keçiriləcək yeniyetmələrin III Yay Olimpiya Oyunları üçün, 2019-cu ildə isə Belarusda təşkil olunacaq II Avropa Oyunları üçün lisenziya qazanmaq imkanı verib.

Azərbaycanda idmanın inkişaf sürəti, yarışların təşkili səviyyəsi, peşəkar idmanın inkişafı üçün yaradılmış şərait və idmanın kütləvililiyinin təmin olunması, idmançıların beynəlxalq arenada əldə etdikləri nailiyyətlər dünya idman ictimaiyyətinin diqqət mərkəzindədir. İdman tədbirlərinin iştirakçıları Bakının gözəlliyinə, onun müasir binalarına və infrastrukturuna, eləcə də ölkədə əhalinin rifahına birbaşa təsir edən hərtərəfli iqtisadi tərəqqiyə heyran qalırlar. Bu, Azərbaycanda idmanın inkişafına yönəlmiş, gələcək nəsillər üçün böyük bir miras olan məqsədyönlü siyasətinizin nəticəsidir.

Sizə Azərbaycanın tərəqqisinə yönəlmiş gələcək fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

Əminəm ki, Azərbaycan xalqının Zati-alinizə olan inamı Sizi ölkənin inkişafı, rifahı və təhlükəsizliyi istiqamətində mühüm səyləri davam etdirməyə ruhlandıracaq.

***Hörmətlə,***
***Fərid Qayıbov***
***Avropa Gimnastika İttifaqının prezidenti***

## *Özbəkistan Milli Olimpiya Komitəsinin prezidenti Umid Axmatcanovdan*

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab İlham Əliyev.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Özbəkistan Milli Olimpiya Komitəsi adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Xalqın yüksək etimadı, zəngin təcrübəniz və nüfuzunuz Sizi bundan sonra da ölkənizin rifahı naminə daha səylə çalışmağa, aktual sosial-iqtisadi məsələlərin həlli barədə mükəmməl qərarlar qəbul etməyə ruhlandıracaq.

Sizin müdrik rəhbərliyinizlə həyata keçirilən idman siyasəti sayəsində Azərbaycanın qazandığı uğurlar bizi ürəkdən sevindirir və ruhlandırır.

Azərbaycanda beynəlxalq əhəmiyyətli böyük idman tədbirlərinin keçirilməsi, eləcə də müvafiq infrastrukturun yaradılması bu nailiyyətlərin göstəricisidir. 2012-ci ildə qızlar arasında futbol üzrə U-17 dünya çempionatının, 2015-ci ildə Avropa Oyunlarının, 2016-cı ildə yeniyetmələr arasında Avropa çempionatının, 2016-cı ildən başlayaraq Formula 1 Qran-Pri yarışlarının, 2016-cı ildə Şahmat Olimpiadasının, habelə 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarının keçirilməsi buna əyani sübutdur.

Bu gün bizim əsas vəzifəmiz Özbəkistan-Azərbaycan münasibətlərini möhkəmləndirməkdən, idmanın və Olimpiya hərəkatının inkişafı sahəsində əməkdaşlığı daha da dərinləşdirməkdən ibarətdir.

Zati-aliləri, bir daha Sizə möhkəm cansağlığı, rifah arzulayır, ən yüksək ehtiramımı ifadə edirəm.

***Dərin hörmətlə,***
***Umid Axmatcanov***
***Özbəkistan Milli Olimpiya Komitəsinin prezidenti***

## *Özbəkistan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Səlim Abduvaliyevdən*

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab İlham Əliyev.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin. Seçkilərdə inamlı qələbəniz xalqın Sizə etimadının təzahürüdür.

Azərbaycan Sizin rəhbərliyinizlə bu gün həm idman sahəsində, həm də bir çox başqa sahələrdə yüksək göstəriciləri ilə seçilən lider ölkədir. Bu da Sizin yürütdüyünüz siyasətin və doğma Vətəninizdə idman hərəkatının inkişafına peşəkarcasına yanaşmanın göstəricisidir.

Sizə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram. Xalqlarımızın rifahı naminə səmərəli əməkdaşlığımızın bundan sonra da davam edəcəyinə ümidvaram.

***Hörmətlə,***
***Səlim Abduvaliyev***
***Özbəkistan Milli Olimpiya Komitəsinin vitse-prezidenti***

## Formula-1 üzrə Azərbaycan Qran-Prisi bu gün başlayır



Bu gün ölkəmizdə Formula-1 üzrə Azərbaycan Qran-Prisi start götürür. 3 gün davam edən yarış "Formula-2" pilotlarının sərbəst yürüşü ilə başlayacaq. Onlar yarışın ilk günündə sıralama turunda iştirak edəcəklər. Həmçinin, Formula-1 iştirakçıları 2 sərbəst yürüşlə azarkeşlər önünə çıxacaqlar.

Ertəsi gün Formula-2-də birinci yarış, Formula-1-də üçüncü sərbəst yürüş və sıralama turu olacaq. Aprelin 29-da isə Formula-2 üzrə ikinci yarış təşkil olunacaq. Günün sonunda isə Azərbaycan Qran-prisinin qalibləri müəyyənləşəcək.

## Boksçumuz Avropa çempionu oldu



İtaliyanın Rozeto-deli-Abrutsi şəhərində keçirilən gənc boksçular arasında Avropa birinciliyinə yekun vurulub. Azərbaycan millisi yarışı 1 qızıl və 1 gümüş medalla başa vurub. Vaqif Şirinovun yetirmələrindən Nurlan Səfərov (60 kq) Avropa çempionu tituluna yiyələnib. Həmyerlimiz gərgin keçən final döyüşündə hollandiyalı Peer van Cası 3:2 hesabı ilə məğlub edib. Bu qələbə boksçumuza qızıl medalla yanaşı, bu ilin oktyabrında Argentinanın paytaxtı Buenos-Ayresdə keçiriləcək Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına lisenziya da qazandırıb.

Yığmamızın 69 kq-dakı təmsilçisi Nicat Həsənov isə ikinci yerlə kifayətlənib. O, finalda rusiyalı Cambulat Bijamova 0:5 hesabı ilə məğlub olub.

Ölkəmiz 1 qızıl və 1 gümüş medalla oğlanlardan ibarət yığmaların komanda hesabında 6-cı yeri tutub.

## *Anons*


*"AGF Junior Trophy" beynəlxalq bədii gimnastika turnirinə yekun vurulub* **Səh. 2**

Formula-1 azarkeşlərini "Baku Crystal Hall"da möhtəşəm şoular gözləyir

*Komandamız Antalyada 6 medal qazandı*

**Səh. 3**


**Futbol üzrə Dünya Çempionatına 48 gün qalır**

FIFA WORLD CUP RUSSIA 2018

## Çempionlar Liqası: nəhənglərin soyuq mübarizəsi





**Səh. 7**


## Argentinada nümayəndə rəhbərlərinin iclası keçirilib

Argentina Buenos-Ayres-2018 Yeniyetmələrin Yay Olimpiya Oyunlarının nümayəndə rəhbərlərinin iclasına ev sahibliyi edib. İclasda 200-dən çox ölkənin nümayəndələri iştirak edərək fikir mübadiləsi aparıblar.

Tədbirdə ölkəmizi komandamızın bu yarışlardakı nümayəndə heyətinin rəhbəri, Azərbaycan Milli Olimpiya Komitəsinin əməkdaşı Mehman Kərimov təmsil edib.

İclasda təqdimatçılar nəqliyyat, daşınma, qidalanma, mərasimlər, Yeniyetmələr Olimpiya Kəndinin rolu və funksiyası daxil olmaqla müxtəlif mövzulara toxunublar.

Milli Olimpiya komitələrinin 280-dən çox nümayəndəsi Gənclər Olimpiya Mərkəzinin tikintisinə, Buenos-Ayres-2018 Oyunlarının 4 parkına baş çəkiblər.

## *Olimpizm*

### Gürcüstan Olimpiada-2030-a ev sahibliyi etmək istəyir



Beynəlxalq Olimpiya Komitəsi (BOK) Gürcüstanın 2030-cu ildə keçiriləcək Olimpiya Oyunlarına ev sahibliyi üçün namizədliyini vermək ideyasını alqışlayıb. Bu barədə BOK-un vitse-prezidenti Naval-əl-Mutavakel Gürcüstanın baş naziri ilə görüşündən sonra deyib.

"Gürcüstan hökuməti 2030-cu ildə keçiriləcək Qış Olimpiya Oyunlarına ev sahibliyi etmək arzusundadır. Düşünürəm ki, bu ölkə mötəbər idman tədbirini təşkil edə bilər və bunun üçün münasib vaxtdır. Biz bu ideyanı alqışlayırıq", - deyə BOK-un rəsmisi bildirib.

Qeyd edək ki, Gürcüstan dağ xizəyi üzrə kurort ölkələrindən biridir və burada qış idman növləri yaxşı inkişaf edib.

### WADA dəstək verib

Beynəlxalq Antidopinq Agentliyi (WADA) Beynəlxalq Olimpiya Komitəsinə (BOK) dəstək verib. Məsələ onunla bağlıdır ki, BOK Beynəlxalq İdman Arbitrajı Məhkəməsinə (CAS) Soçi-2014 Qış Olimpiadasından əvvəl dopinqdə adı hallanan 28 rusiyalı idmançıya bəraət verməsinə etirazını bildirib.

WORLD ANTI-DOPING AGENCY

Deyilənlərə görə, həmin idmançılara bəraət verilməsində xüsusilə, CAS-ın arbitri, avstriyalı Mixael Qayslinqerin rolu daha böyükdür. Onun bu hərəkəti ruslara qarşı xoş münasibəti ilə izah olunur.

## Beynəlxalq Paralimpiya Komitəsinin sabiq prezidenti Filip Kravendən

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Azərbaycan Milli Paralimpiya Komitəsinə göstərdiyiniz dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm.

Azərbaycan Milli Paralimpiya Komitəsinin sürətlə inkişaf etməsini görmək məni çox sevindirir. Paralimpiya oyunlarına nisbətən yeni qoşulan bir ölkənin idmanın bu sahəsində yüksək uğurlar qazanmasını görmək çox xoşdur. Bu uğurlar Sizin Milli Paralimpiya Komitəsinə göstərdiyiniz yüksək diqqət və qayğının nəticəsidir.

Prezidentliyinizin yeni dönəmində Sizə daha böyük uğurlar arzulayıram. Əminəm ki, Azərbaycan Milli Paralimpiya Komitəsi qarşıdakı illərdə daha böyük nailiyyətlər əldə edəcəkdir.

***Dərin hörmətlə,***
***Filip Kraven***
***Beynəlxalq Paralimpiya Komitəsinin sabiq prezidenti***

## Dünya Taekvando Federasiyasının prezidenti Çunq Von Çodan

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Dünya Taekvando Federasiyası adından səmimi qəlbdən təbrik edirəm. Seçkilərdə inamlı qələbəniz Azərbaycanın inkişafı naminə gördüyünüz böyük işlərə xalqın verdiyi qiymətin təsdiqidir.

Dünya Taekvando Federasiyası ilə Azərbaycan Respublikası arasında çox gözəl işgüzar münasibətlər mövcuddur. Son illər ərzində idmanın taekvando növü Azərbaycanda çox geniş inkişaf edib və biz bu işdə Sizin xidmətlərinizi yüksək qiymətləndiririk. Federasiyamızın hər bir üzvü Azərbaycanda taekvandonun daha da inkişaf etməsi üçün Sizinlə sıx əməkdaşlıq etmək niyyətindədir.

Zati-aliləri, Sizə prezidentliyinizin yeni dönəmində daha böyük uğurlar arzulayıram.

***Dərin hörmət və ehtiramla,***
***Çunq Von Ço***
***Dünya Taekvando Federasiyasının prezidenti***

*Güləş*

# Avropa çempionatında çıxış edəcək heyət açıqlanıb



Aprelin 30-dan mayın 6-dək Rusiyanın Kaspiysk şəhərində keçiriləcək Avropa çempionatına yollanacaq yunan-Roma güləşi üzrə Azərbaycan yığmasının heyəti açıqlanıb.

Yunan-Roma güləşi üzrə yığmanın baş məşqçisi Şaban Donatın rəhbərliyi altında yarışda 10 pəhləvanımız qüvvəsini sınayacaq. Beləliklə, Avropa çempionatında ölkəmizi Eldəniz Əzizli (55 kq), Murad Məmmədov (60 kq), Taleh Məmmədov (63 kq), Elman Muxtarov (67 kq), Rəsul Çunayev (72 kq), Elvin Mürsəliyev (77 kq), Rafiq Hüseynov (82 kq), İslam Abasov (87 kq), Orxan Nuriyev (97 kq) və Türmən Eyyubov (130 kq) təmsil edəcək.

Qeyd edək ki, aprel 30-da 55 kq, 63 kq, 77 kq, 87 kq və 130 kq, may 1-də isə 60 kq, 67 kq, 72 kq, 82 kq və 97 kq çəki dərəcələri üzrə təsnifat görüşləri keçiriləcək. Medal görüşləri isə müvafiq olaraq, mayın 1 və 2-də olacaq.

## Şaban Donat: "Tokio-2020 Olimpiadasına qızıl medala namizəd pəhləvanlarla gedəcəyik"

Aprelin 25-də Olimpiya Güləş Mərkəzində Avropa çempionatına hazırlığı davam etdirən yunan-Roma güləşi üzrə yığma komandanın mətbuat üçün açıq məşqi keçirilib. Mətbuat nümayəndələrinin suallarını cavablandıran yığma komandanın baş məşqçisi Şaban Donat çempionata hazırlıqla bağlı fikirlərini bölüşüb:

- Avropa çempionatı yeni qaydalarla keçiriləcək. Yarışa yaxşı hazırlıq dövrü keçmişik. Yarış ərəfəsində Ukrayna və İranda iştirak etdiyimiz turnirlərdə uğurlu nəticələr göstərmişik. Məşqçilər heyətində dəyişiklik baş verib. Pekin-2008 və London-2012 Olimpiya Oyunlarının gümüş mükafatçısı Rövşən Bayramov artıq bilik və təcrübəsini gənc güləşçilərlə bölüşür. Onunla birgə Emin Əhmədov da məşqçi kimi çalışır. Hesab edirəm ki, yığmaya yeni nəfəs gəlib. Çempionata iddialı yollanacağıq. Avropa çempionatında Azərbaycanı ən yaxşı səviyyədə təmsil etməyə, ölkənin bayrağını ucaltmağa çalışacağıq. Təbii ki, güclü rəqiblərimiz var. Amma biz də güclüyük.

***- Daha çox hansı çəkilərdə qızıl medal gözləmək mümkündür?***

- Heyətimizdə Rəsul Çunayev kimi təcrübəli idmançılar yer alıb. Biz kiminsə üzərinə yük qoymaq istəmirik. Çünki bu, fərdi mübarizə olduğundan, hər kəs özünə cavabdehlik daşıyır. Azərbaycan güləşdə güclü ölkələrdəndir. Bütün çəkilərdə medal qazanmağa iddialıyıq. Bu medal qızıl da ola bilər, gümüş də, bürünc də.

***- 130 kq çəki dərəcəsində edilən dəyişiklik nə ilə əlaqədardır?***

- Ukraynada keçirilən turnirdə zədələndiyi üçün Sabah Şəriətini Türmən Eyyubovla dəyişdik. Əslində Eyyubov 97 kq çəkidə güləşir. O da bu mövsümdə yaxşı irəliləyişə nail olub. İranda keçirilmiş turnirdə bürünc medal qazanıb. Gənc olmasına baxmayaraq, hazırkı formasına əsasən, Türmənin 130 kq-da çıxış etməsinə qərar verdik.



***- 2020-ci il Tokio Yay Olimpiya Oyunlarında mübarizə 6 çəki dərəcəsi üzrə aparılacaq. Həmin çəkilərə xüsusi diqqət yetirilirmi?***

- Təbii ki, bu çəkilər daha çox diqqət mərkəzindədir. 2016-cı il Rio-de-Janeyro Yay Olimpiya Oyunlarından sonra bütün çəkilərdə dəyişikliklər edilib. Olimpiya çəkilərində Murad Məmmədov, İslam Abbasov, Orxan Nuriyev kimi gənc güləşçilərimiz var. 2019-cu ildə Rəsul Çunayevin də Olimpiya çəkisinə keçirilmə məsələsinə baxacağıq. Komandaya yeni cəlb olunan güləşçilərlə davam etməyi düşünürük. Tokio-2020 Olimpiadasına mübariz, döyüşkən, qızıl medala namizəd pəhləvanlarla gedəcəyik. Növbəti olimpiadada bu növdə Olimpiya çempionumuz mütləq olacaq. Bu istiqamətdə yeni köməkçilərimin də təcrübəsindən yararlanacağıq.

## Rafiq Hüseynov: "Avropa çempionatında öz sözümüzü deyəcəyik"

Yunan-Roma güləşi üzrə yığmanın üzvü Rafiq Hüseynov Rusiyanın Kaspiysk şəhərində keçiriləcək Avropa çempionatına hazırlıq barədə danışıb.

82 kq çəki dərəcəsində mübarizə aparan 30 yaşlı pəhləvan rəqibləri arasında dünya və Avropa çempionlarının olduğunu, ancaq yüksək hazırlıq keçdiyini, medal qazanmaq üçün əlindən gələni edəcəyini bildirib: "Avropa çempionatında öz sözümüzü deyəcəyik. Mənim çəkimdə 16 nəfər iştirak edəcək. Onlardan 8-9-u dünya səviyyəsində tanınmış idmançılardır. Rusiya və Türkiyə ilə yanaşı, Ermənistandan olan dünya çempionu çıxış edəcək. Həmçinin, rəqiblərim arasında Gürcüstan və Albaniyadan Avropa çempionları var. Yarış güləşin sevildiyi ölkədə - Rusiyanın Kaspiysk şəhərində keçiriləcək. Bu, əlavə stimuldur. İdmançılar zalda oturan azarkeşlərin səsindən enerji alırlar".

Ağır zədə səbəbindən ötən yay dünya çempionatında iştirak edə bilməyən Rafiq Hüseynov hazırda yaxşı formada olduğunu deyib: "Peşəkar idmanda zədələr olur. Güləşdə bu, daha ağırdır. Komanda yoldaşlarımız bu yolu keçiblər, hamısı bilirlər. Ötən yay dünya çempionatı ərəfəsində zədələndim və topuğumdan əməliyyat olundum. Bundan sonra həkimlər 4 ay müddətində müalicə keçməyi məsləhət gördülər. Artıq yaxşı formadayam. Yığmada əhval-ruhiyyə yüksək səviyyədədir".

*Gimnastika*

# "AGF Junior Trophy" beynəlxalq bədii gimnastika turnirinə yekun vurulub

## Arzu Cəlilova turnirin qızıl medalına sahib olub

Aprelin 23-24-də Milli Gimnastika Arenasında keçirilən 2003-2005-ci illər təvəllüdlü qızlar arasında "AGF Junior Trophy" beynəlxalq bədii gimnastika turniri başa çatıb.

Turnir bu ilin iyun ayının 1-3-də İspaniyanın Quadalahara şəhərində təşkil ediləcək bədii gimnastika üzrə Avropa çempionatı formatında keçirilib. Ölkəmizin ev sahibliyi etdiyi yarışlarda dünyanın 18 ölkəsindən gənc gimnastlar medallar uğrunda mübarizə apardılar.

Gimnastlar yarışların ilk günündə halqa, top, gürz və lentlərdə fərdi, eləcə də, komanda hesabında finallar uğrunda yarışıblar. Hakimlərdən 89,250 xal alan Azərbaycan yığma komandası turnirin bürünc medalına layiq görülüb. İkinci komandamız isə 88,300 xalla beşinci yerdə qərarlaşıb.Yarışın qızıl medalını 100,900 xalla Rusiya komandası qazanıb. Belarus millisi isə yarışları 93,300 xalla 2-ci yerdə başa vurub.

Gimnastımız Arzu Cəlilova "Ən yüksək icra xalına görə" hakimlər briqadası tərəfindən "AGF Trophy" mükafatı ilə təltif edilib.

Aprelin 24-də, yarışların ikinci günündə ayrı-ayrı alətlərdə ən güclü idmançıların adlarına aydınlıq gəlib. Həmin gündə 5 ölkənin gimnastları fəxri kürsüdə yer almağa nail olublar. Rusiya gimnastları ümumi nəticədə üç qızıl və bir gümüş, Azərbaycan təmsilçiləri 1 qızıl, 1 gümüş və 1 bürünc, Bolqarıstan atletləri 1 gümüş və 2 bürünc, Belarus idmançıları 1 gümüş, israilli qızlar isə bir bürünc medala sahib olublar.

### Azərbaycan gimnastları turnirin dəst medallarını qazandılar

Azərbaycan gimnastları Nərminə Səmədova və Dərya Farşbafşəhriyari "AGF Junior Trophy" turnirinin gümüş və bürünc medallarına layiq görülüblər. Nərminə Səmədova top ilə hərəkətlərdə yarışların gümüş mükafatını qazanıb. İdmançımız hakimlərdən 16.050 xal alıb. Qızıl medalın sahibi Rusiya idmançısı Daria Trubnikova (17.650 xal) olub. Bolqarıstanlı Tatyana Volozhanina (15.850 xal) isə 3-cü olub.

Halqa ilə yarışlarda təmsilçimiz Dərya Farşbafşəhriyari 15.600 xalla bürünc medala layiq görülüb. Bu yarışlarda ilk pillədə 17.750 xalla rusiyalı Lala Kramarenko, ikinci yerdə isə 16.000 xalla Belarus gimnastı Anna Kamençikova qərarlaşıb.

Məlumat üçün bildirək ki, aprelin 27-29-da böyük gimnastlar Bakıda bədii gimnastika üzrə FİG Dünya kuboku yarışlarında qüvvələrini sınayacaqlar.

### Mariana Vasileva: "Gimnastlarımızın çıxışından razı qaldım"



Bədii gimnastika üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Mariana Vasileva "Olimpiya dünyası" qəzetinə verdiyi müsahibəsində gimnastlarımızın çıxışları ilə bağlı fikirlərini bölüşdü:

"Hazırlıq üçün vaxtın az olmasına baxmayaraq, qızlar lazımi səviyyədə çıxış etdilər. Mənim üçün vacib olan onların hərəkətləri səhvsiz yerinə yetirmələri idi. Doğma divarlar arasında çıxış etmək həmişə çətin olur, hamı yaxşı nəticə gözləyir. Qızlarımızın dəst medal qazanmaları məni bir məşqçi kimi çox sevindirdi. Arzu Cəlilova turnirin qızıl medalını qazandı. Nərminə Səmədova gümüş, Dərya Farşbafşəhriyari isə bürünc medala sahib oldu. Qızlarımız komanda hesabında da bürünc medal qazandılar. Gimnastlarımızın çıxışından razı qaldım.

Azarkeşlər üçün nəticə vacibdirsə, məşqçi üçün ən vacibi həm də idmançıların çıxışı, onların səhvləridir. Bizim gənc qızlarımız var, onların dördü də çox perspektivlidir, amma təcrübələri çox azdır. Onlar beynəlxalq arenada bu ilin əvvəlindən çıxış etməyə başlayıblar. Mən şadam ki, onlar dörd hərəkətdən üçünü təmiz icra etdilər. İndi səhvlər üzərində işləmək lazım gəlir. Bizi qarşıda Avropa çempionatı gözləyir və yarışlara ciddi hazırlaşırıq".

### Arzu Cəlilova: "Doğma məkanda qızıl medal qazandığım üçün xoşbəxtəm"

"AGF Junior Trophy" beynəlxalq bədii gimnastika turnirinin lentlə hərəkətlərdə qızıl medalçısı Arzu Cəlilova yarışdan sonra medal sevincini bizimlə paylaşdı:



"Mən çox xoşbəxtəm. Doğma məkanda qızıl medal qazandığım üçün böyük qürur hissi keçirirəm. Bizim üzərimizdə böyük məsuliyyət var idi. Azarkeşlərin dəstəyi həyəcanın öhdəsindən gəlməyə çox kömək etdi.

Turnirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan Gimnastika Federasiyasına və göstərdiyi dəstək üçün bütün Azərbaycan xalqına təşəkkürümü bildirirəm. İndi əsas hədəfim Avropa çempionatının qızıl medalını qazanmaqdır".

### Nərminə Səmədova: "Əsas məqsədimiz çempionatda birinci olmaqdır"

"Bu nəticəni gözləyirdim, çünki özümü medala hazırlamışdım".

Bu sözləri "AGF Junior Trophy" beynəlxalq turnirində topla hərəkətlərdə gümüş medal qazanan gimnastımız Nərminə Səmədova deyib.



Doğma divarlar arasında keçirilən yarışda medal qazandığına görə sevincli olduğunu söyləyən bədii gimnastımız çıxışından razı qaldığını bildirib: "Komanda yoldaşlarımın çıxışlarına baxa bilmədim. Amma eşidəndə ki, onlar da medal qazanıblar, çox sevindim.

Hazırda bədii gimnastika yığması səylə İspaniyada keçiriləcək Avropa çempionatına hazırlaşır. Arzu Cəlilova, Yelizaveta Luzan, Dərya Farşbafşəhriyari və mən Avropa çempionatından çox şey gözləyirik. Əsas məqsədimiz çempionatda birinci olmaqdır".

### Dərya Farşbafşəhriyari: "Gələcəkdə bu medalın qızıl olmasını arzu edirəm"

"AGF Junior Trophy" beynəlxalq turnirinin bürünc medalçısı Dərya Farşbafşəhriyari yarışla, qazandığı uğurla bağlı təəssüratlarını bölüşüb:

"AGF Junior Trophy" beynəlxalq turnirində bürünc medal qazandığım üçün sevinirəm, ancaq gələcəkdə bu medalın qızıl olmasını arzu edirəm. Bakıda, öz ölkəmizdə çıxış etmək çox çətin oldu, çünki məsuliyyətli idi və çoxsaylı insanlar bizim qələbəmizi gözləyirdilər. Psixoloji baxımdan da çox çətin idi, tamaşaçıların dəstəyi sayəsində bu gərginlik aradan qalxdı.



Ümid edirəm ki, bir ay sonra İspaniyada keçiriləcək Avropa çempionatında da uğurla çıxış edib, komanda hesabında qızıl medal qazana biləcəyik".

***Səadət Hakıyeva***

*Cüdo*

# Komandamız Antalyada 6 medal qazandı

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimovun rəhbərliyi ilə qurumun cüdo üzrə milli komandası Türkiyənin Antalya şəhərində keçirilən İBSA dünya kuboku yarışlarında iştirak edib.

İlqar Rəhimov səfər çərçivəsində beynəlxalq təşkilatların və bir sıra ölkələrin Milli Paralimpiya komitələrinin rəhbərləri ilə görüşüb. Aprelin 23-də Azərbaycan Milli Paralimpiya Komitəsi ilə Türkiyə Görmə Əngəllilər İdman Federasiyası arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Memorandumu İlqar Rəhimov və Hasan Sayyıdan imzalayıblar.



Memorandumda birgə iş fəaliyyəti qurmaq, 2020-ci ildə Tokioda keçiriləcək Yay Paralimpiya Oyunlarına hazırlıq məqsədilə təlim-məşq toplanışlarının keçirilməsi, cüdo, atletika, üzgüçülük və qolbol idman növlərinə texniki, nəzəri və praktiki dəstəyin verilməsi, beynəlxalq tədbirlərdə birgə iş və digər məsələlər əksini tapıb.

İmzalanma mərasimində İlqar Rəhimov bildirib ki, Türkiyənin müvafiq federasiyası ilə əməkdaşlıq Azərbaycan Milli Paralimpiya Komitəsi üçün mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, Türkiyə Görmə Əngəllilər İdman Federasiyası qardaş ölkədə fəaliyyət göstərən ən böyük paralimpiya federasiyasıdır və görmə qabiliyyəti məhdud paralimpiyaçı idmançılara hərtərəfli dəstək verir.

Məlumat üçün bildirək ki, yığmamız IBSA dünya kuboku yarışında 1 qızıl, 1 gümüş və 4 bürünc medal qazanıb. Hüseyn Rəhimli (81 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Sevda Vəliyeva (52 kq) gümüş medal qazanıb. Digər təmsilçilərimiz Səbinə Abdullayeva (57 kq), Orxan Qarayev (60 kq), Kənan Abdullaxanlı (90 kq) və İlham Zəkiyev (100 kq-dan yuxarı) bürünc medal qazanıblar.

* * *

Şirvan şəhərində cüdo üzrə regionlar arası "Federasiya kuboku" uğrunda komanda yarışları keçirilib. Turnir 15 yaşlı yeniyetmə cüdoçular arasında təşkil olunub. Yarışda respublikamızın müxtəlif bölgələrindən olan perespektivli cüdoçular mübarizə aparıblar. Daha yaxşı nəticə göstərən "Sumqayıt-1" komandası "Federasiya kuboku" turnirinin növbəti mərhələsinin qalibi olub. "Bakı-3" klubu 2-ci, "Şimal Qərb" komandası isə 3-cü yeri tutub. Regionlar arası "Federasiya kuboku" uğrunda komanda yarışlarının növbəti mərhələsi aprelin 28-də Xaçmaz rayonunda keçiriləcək.

*Voleybol*

# Yığmamızın İsveçlə oyunlarının vaxtı dəqiqləşib

Kişi voleybolçulardan ibarət Azərbaycan millisinin Avro-2019-un seçmə mərhələsindəki oyunlarından ikisinin keçirilmə günü dəqiqləşib. Fərid Cəlalovun yetirmələri qitə çempionatına avqustun 15-də start verəcəklər. Komandamız həmin gün Bakıda İsveç yığmasını qəbul edəcək. Bu millilər arasında cavab qarşılaşması isə 2019-cu il yanvarın 9-na təyin edilib.

Qeyd edək ki, voleybolçularımız İsveçlə yanaşı, Yunanıstan və Lüksemburqla birgə G qrupunda yer alıb.



# Formula-1

## Formula-1 azarkeşlərini "Baku Crystal Hall"da möhtəşəm şoular gözləyir

Formula-1 Azərbaycan Qran-Prisi çərçivəsində "Baku Crystal Hall"da keçiriləcək əyləncə proqramının işçi heyətinin aprelin 24-də görüşü keçirilib.

Görüşdə işçi heyətinin vəzifələri, tədbir vaxtı üzərlərinə düşəcək məsuliyyət və tədbirə hazırlığın səviyyəsi müzakirə olunub.

Formula-1 yarışları çərçivəsində "Baku Crystal Hall"da dünya ulduzlarının və məşhur DJ-lərin iştirakı ilə möhtəşəm konsert proqramları təşkil olunacaq.

Qeyd edilib ki, fiziki qüsurlu tamaşaçılar üçün iki platforma hazırlanıb. Platformada 34 əlil arabası yerləşdirilə biləcək. Tamaşaçılar biletlərindəki kateqoriyalara uyğun yerləşdiriləcəklər. Buraya oturacaqlı və oturacaqsız biletlər daxildir. Oturacaqlı biletlərə sahib tamaşaçılar üçün 8 minlik yer hazırlanıb. Buraya "Abşeron" tribunasına, "Paddock" kluba və korporativ bokslara biletləri olan tamaşaçılar daxildir. Ayaqüstü zona isə 18-20 min tamaşaçını qəbul edəcək. Formula-1 azarkeşlərini "Baku Crystal Hall"da da möhtəşəm şoular gözləyir.

Əyləncə proqramı zamanı səhnəyə daha yaxın hissəyə - "Qızıl dairə"yə standart biletlərə sahib tamaşaçıların buraxılmayacağını diqqətə çatdıran Elvin Məmmədov bildirib ki, bu sahəyə daxil olmaq istəyənlər əlavə ödəniş etməlidirlər. Belə ki, "Qızıl dairə"nin biletlərini konsertlərin təşkil olunacağı "Baku Crystal Hall"ın kassalarından və şəhərimizin satış məntəqələrindən əldə edə bilərlər.

Bütün bilet sahibləri aprelin 27-29-da axşam saatlarından etibarən keçiriləcək konsert və əyləncə proqramlarında pulsuz iştirak edə biləcəklər. Aprelin 27-də əvvəlcə səhnəyə "Jamiroquai" qrupu çıxacaq və sonra onun ardınca gecə saatlarında DJ Afrojackın iştirakı ilə əyləncə proqramı baş tutacaq. Aprelin 28-də bir-birinin ardınca səhnədə Kristina Aqilera ilə "Axwell Ingrosso", aprelin 29-da isə Dua Lipa ilə Martin Solveig yer alacaqlar. Həmçinin proqram aralarında verilən fasilələrdə yerli DJ-lər də səhnəyə çıxaraq tamaşaçılara



əyləncə ilə dolu gecə təqdim edəcəklər. Əvvəlki illərdəkindən fərqli olaraq bu il dünya ulduzlarının konsert proqramları "Baku Crystal Hall"da keçiriləcək. Tamaşaçıların konsert zonasına rahat gediş-gəlişini təmin etmək üçün Azneft dairəsi ilə "Baku Crystal Hall" arasında xüsusi avtobuslar fəaliyyət göstərəcək.

* * *

"Pirelli" şirkətinin avtoyürüş bölməsinin rəhbəri Mario İzola qarşıdakı yürüş barədə fikirlərini bölüşüb. O deyib: "Bu mövsümdə şin ustaları Bakıya yetərincə yumşaq tərkibli rezin gətirəcəklər. Əvvəlki iki ildə komandalar bu şəhər trasına hədsiz mühafizəkar yanaşmadan gileylənirdilər. Digər tərəfdən, Formula-1 Azərbaycan Qran-Prisi əvvəllər iyun ayında keçirilirdi. Bu dəfə isə həmin tədbir aprel ayında keçiriləcək. Hava o qədər də isti deyil, buna görə şinlərin özünü necə göstərəcəklərini faktiki olaraq heç kəs bilmir.

Mario İzolanın fikrincə bu dəfə hamı Azərbaycan Qran-Prisinə yeni mövqedən baxmalı olacaq, çünki indi yürüşlər əvvəlki ilə müqayisədə iki ay tez keçirilir. Hava şəraiti baxımından, yəqin ki, müəyyən təzadlar olacaq, çünki əvvəlki yürüşlərdə trasın hərarəti bəzən 50 dərəcədən yüksək olurdu.



Mario İzola daha sonra deyib: "Keçən il şinlər üçün yeni reqlament ilk dəfə tətbiq ediləndə başa düşdük ki, şinlərin tərkibinin seçilməsində hədsiz mühafizəkarlığa yol vermişik, faktiki olaraq heç kəs "Medium" şinlərindən istifadə etməmişdi. Ona görə başa düşürdük ki, bu il daha ciddi seçim etməliyik. Bunun sayəsində yürüşdə üç tərkibin hər hansı birindən istifadə etmək üçün real imkan olmalıdır. Bu halda biz Bəhreyndə və Çində keçirilmiş son iki Qran-Pri yürüşlərində olduğu kimi maraqlı strategiyaların şahidi ola biləcəyik".

* * *

Sergey Sirotkin Formula-1-in pilotu kimi ilk dəfə Azərbaycan Qran-Prisində starta çıxacaq. Lakin o, artıq burada GP2 və Formula-2-də dörd yürüş keçirib. 2016-cı ildə o, podiuma iki dəfə qalxıb, 2017-ci ildə isə travma almış Aleksandr Elbonu bir mərhələdə əvəz edib.

Sergey Sirotkin Bakı trasının özünəməxsusluğundan danışaraq deyib: "Bu trasda istənilən səhv ya toqquşmaya, ya ciddi vaxt və mövqe itkisinə gətirib çıxarar. Ona görə də burada nəzəri maksimuma çatmağa can atmamaq, lakin trasda konkret şəraitdə maksimum nəticəyə nail olmaq daha vacibdir. Kim özünə arxayındırsa, dövrə-dövrə yeni rezervlər axtara bilər.

Hamar örtük səbəbindən yürüş vaxtı ön təkərlərin, yaxud əyləcin qızması ilə bağlı çətinlik yarana bilər, habelə arxa təkərlərin həddən artıq qızması nəticəsində mikrosürüşmələr və sürətdə çoxsaylı artıb-azalma baş verə bilər", - deyə Sirotkin qeyd edib.

* * *

"William Hill" bukmeker kontoru Formula-1 Azərbaycan Qran-Prisində qələbə ilə əlaqədar mərclərin məzənnəsini dərc edib.

Əvvəlki üç mərhələdə olduğu kimi, Luis Hamilton favorit hesab edilir. Lakin britaniyalı pilot bu il hələ ki, heç bir yürüşdə qalib gəlməyib. Çin Qran-Prisinin qalibi Daniel Rikkardo ilə onun komanda yoldaşı Maks Ferstappenin qələbə şansları eynidir.

Luis Hamilton dünya çempionatının hesabında da favoritdir, lakin "Ferrari"nin lideri Sebastyan Fettelin qələbə şansı ondan cüzi azdır. Bukmekerlərin fikrincə, yerdə qalan yürüşçülərin perspektivləri iki liderlə müqayisədə böyük deyil.

Çin Qran-Prisindən sonra "Mersedes" Konstruktorlar Kubokuna başçılıq edib - Almaniyanın avtomobil konserninin komandası bukmekerlərin də favoritidir.

* * *

Formula-1-in 2018-ci il mövsümünün Bakıda keçiriləcək dördüncü mərhələsi və Azərbaycan Qran-Prisi ərəfəsində yarışları işıqlandıran italyan veteran jurnalist, sadiq "Ferrari" azarkeşi Leo Turini "Mersedes" komandasındakı vəziyyətlə bağlı fikirlərini bölüşüb. Onun sözlərinə görə, hibrid texnologiya ustaları iki, maksimum üç Qran-Pridən sonra öz problemlərinin öhdəsindən gələcəklərini söyləyirlər.

Leo Turini "Mersedes"in texniki direktoru Ceyms Ellisonun və baş mühəndis Aldo Kostanın hazırlıq işlərini tamamlamaq üçün səylə çalışdıqlarını bildirib.

Lakin Formula-1-də hər hansı situasiyada ideal vəziyyətə can atarkən, mühərrikin imkanlarının hamısından istifadə etməyə tələsməməkdə fayda var. Ola bilər ki, "Ferrari"nin təsnifatın yekunlarına görə, ilk cərgədən müntəzəm start götürə bilməsinin səbəbi də məhz bundadır.

"Mersedes"də vəziyyətə belə aydınlıq gətirə bilərlər: "Bəli, biz azacıq geridə qalırıq, lakin bu, problemlərin həlli və yarışlarla bağlı bizim planımızın bir hissəsi, yanaşma tərzimizdir".

Sonda Leo Turini deyib: "Əgər bu doğrudursa, o zaman bizim heç bir şansımız yoxdur. Onlar səhv edirlərsə, mənim kimi "Ferrari" pərəstişkarları üçün çox yaxşıdır".

* * *

Formula-1-in çempionu Niko Rosberq gənc pilotlara dəstək proqramına start verdiyini elan edib.




O, ötən həftəsonunda İtaliyanın Sarno şəhərində kartinq yarışlarında olub və Gənc Pilotlar Akademiyasının yaradıldığını anons edib. Layihəni "Mersedes F1" və "Petronas" dəstəkləyəcək.

Niko Rosberq bildirib ki, MBM komandasının kartinq rəhbəri Dino Kyozo ilə əməkdaşlıq edəcək. Qeyd edək ki, N.Rosberq 2000-ci illərin əvvəllərində Luis Hamilton ilə birlikdə bu komandanın idman şərəfini qoruyub.

N.Rosberqin proqramına cəlb olunan ilk iki pilot 13 yaşlı ingiltərəli Teylor Barnard və 18 yaşlı italyalı Lorenso Travizanuttodur.

* * *

Bu il F1 Azərbaycan Qran-Prisi ərəfəsində Beynəlxalq Avtomobil Federasiyası (FIA) ötən illə müqayisədə Bakı trasında dəyişikliklərlə bağlı məlumat verib və iki müstəqil DRS zonasının yerini təsdiq edib.

Trasda yenilənmələr çox deyil. Səkkizinci döngədəki apeksdə porebrik dəyişdirilib. Ötən il pilotlardan bununla bağlı şikayətlər daxil olduğundan, onu tamamlamaq lazım gəlib.

DRS zonalarında dəyişiklik olmayıb. Pilotlar iki müstəqil DRS zonasında arxa əks-qanadın idarəetmə elementinin vəziyyətini dəyişə biləcəklər.

DRS zonalarından biri Neftçilər prospektindəki düz uzun yoldadır. Maşınlar arasında intervalın ölçmə nöqtəsi 20-ci döngənin apeksində yerləşir. Sistemi 347 metrdən sonra fəallaşdırmaq mümkündür. Digər DRS zonasının ölçmə nöqtəsi təhlükəsizlik maşınının ikinci xətti ilə üst-üstə düşür. Sistemdən ikinci döngədən 52 metr keçəndən sonra istifadə etmək olar.



**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

# Gənc nəslin formalaşmasında hərbi-texniki idman növlərinin rolu

Vətəni sevmək və müdafiə etmək, bütün xalqın işi, hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur. Konstitusiyamızda dövlətin mənafeyini qorumaq, onun qüdrət və nüfuzunun möhkəmlənməsinə kömək etmək Azərbaycan vətəndaşlarının vəzifəsi kimi aydın göstərilib. Bu baxımdan uşaq və gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin əhəmiyyəti son dərəcə böyükdür. İdmanın texniki və hərbi-tətbiqi növlərinin hər vasitə ilə inkişaf etdirilməsi hərbi-vətənpərvərlik tərbiyəsinin mühüm vasitələrindən biridir. Bu növlər oğlan və qızların nəinki fiziki cəhətdən möhkəmlənməsində, həm də onların fəal həyat mövqeyinin, əxlaqi-iradi keyfiyyətlərinin formalaşmasında, gənc nəslin vətənin müdafiəsinə hazırlanmasında böyük rol oynayır.

## Mərdlik, şücaət, intizamlılıq kimi keyfiyyətlərə malik olmaq

Respublikamızda idmanın hərbi texniki növlərindən atıcılıq, avtomobil, motosiklet, motorlu qayıq, paraşüt idmanı, eləcə də aviasiya və gəmi modelçiliyi inkişaf etdirilir. Statisikaya görə, hərbi-texniki növlər üzrə Azərbaycanda 132 min nəfər dərəcəli idmançı yetişmişdir ki, onun 1240 nəfəri birinci dərəcəli idmançı və ustalığa namizədlərdir. Hərbi-tətbiqi, texniki növləri cəsarətli, güclü və mərd adamların idmanı adlandırılır. Burada insandan cəldlik, güc, vəziyyətdən anında çıxmaq qabiliyyəti, xüsusi bacarıq tələb olunur.

Elmi-texniki tərəqqinin həyatın bütün sahələrinə görünməmiş təsir göstərdiyi bir zamanda idmanın hərbi-texniki növlərinin xalq təsərrüfatı, müdafiə sahəsində əhəmiyyəti daha da artmışdır. Gənclərin asudə vaxtda texniki və hərbi-texniki idman məşğələlərinə kütləvi surətdə cəlb olunması cəsur adamların hazırlanmasına xeyli dərəcədə kömək edir.

Atıcılıq, təyyarə, vertolyot, avtomobil, motosiklet, motorlu qayıq, paraşüt və radio idmanı, eləcə də, aviasiya, avtomobil və gəmi modelçiliyi növləri üzrə məşğələlər gənclərə texnika ilə davranmaq bacarığını aşılayır, yaradıcı münasibəti inkişaf etdirir, əmək vərdişlərini formalaşdırır. Bu məşğələlər həmçinin gənclər arasında kollektivçilik və qarşılıqlı yardım, ictimai borca məsuliyyətli münasibət kimi mühüm mənəvi keyfiyyətləri tərbiyə edir. Mərdlik, şücaət, qələbəyə nail olmaq əzmi, məqsədyönlülük, möhkəm xarakter, intizamlılıq kimi əxlaqi keyfiyyətlər hər bir adam, xüsusilə də hərbi qulluqçular üçün son dərəcə zəruridir. Hərbi-texniki idman növləri gənclərin Silahlı Qüvvələrdə xidmət etməyə hazırlanması prosesinin ayrılmaz tərkib hissəsinə çevrilib. Respublikamızda idmanın hərbi-texniki növlərinin inkişafı, hərbi-vətənpərvərlik tərbiyəsi sahəsində işin təkmilləşdirilməsi Azərbaycanın dövlət orqanlarının müdafiə fəaliyyətinə daim diqqət yetirməsi və onlara qayğı göstərməsində özünü büruzə verir. Könüllü Hərbi-Vətənpərvərlik Texniki İdman Cəmiyyəti (KHVTİC), gənclər təşkilatları və başqa ictimai təşkilatlarla sıx əməkdaşlıq məhz bu işə yardım edir.

Müəssisələrdə, tədris ocaqlarında hərbi-vətənpərvərlik tərbiyəsinin daha yaxşı təşkili məqsədilə KHVTİC-nin rayon, şəhər komitələri gənclər təşkilatları ilə birlikdə baxış-müsabiqələr keçirir. Bu müdafiə işinin, o cümlədən, müdafiə-idman işinin güclənməsinə daha çox kömək edir.

## İdmanın hərbi-texniki növlərinin bazası genişləndirilir

İdmanın hərbi-texniki növlərinin inkişaf etdirilməsi işində müəyyən problemlər və nöqsanlar vardır. Həmin problemlərin həlli, mövcud nöqsanların aradan qaldırılması gənclərin mənəvi, hərbi-vətənpərvərlik tərbiyəsinin səmərəliliyinin yüksəldilməsinə çox yaxşı yardım etmiş olardı. Lakin bu problemləri yalnız əlaqədar ictimai təşkilatların, nazirliklərin və baş idarələrin birgə səyi ilə həll etmək mümkündür. Texniki idman çoxlu maddi vəsait tələb edir. Onun inkişafı bahalı qurğuların tikilməsi, müxtəlif idman texnikasının istehsalı və sair ilə əlaqədardır. Deməli, maliyyə vəsaiti ayrılmalı, onlardan səmərəli istifadə edilməlidir.

Həmkarlar İttifaqı və gənclər təşkilatı ilə birlikdə KHVTİC idmanın hərbi-texniki növlərinin bazasını hər vasitə ilə inkişaf etdirməyə çalışır, bunun üçün ictimai əsaslarla çox iş görülür. Həmkarlar ittifaqlarının yerli komitələri hərbi-texniki idmanın maddi bazasının inkişafına daha böyük kömək göstərmək imkanına malikdir. Bu məqsədlə həmkarlar ittifaqları idman cəmiyyətlərinin işində iştirakını gücləndirə bilər.







Qeyd etmək lazımdır ki, idmançıların müasir tələblərə cavab verən birinci dərəcəli idman texnikası ilə kifayət qədər təmin olunmaması beynəlxalq yarışlarda Azərbaycan planerçilərinin, motorlu qayıqçılarının, kartinqçilərinin zəif çıxış etmələrinə səbəb olur. Bir çox təşkilatlar hətta pul vəsaiti olduğu halda belə, lazımi idman avadanlığı və texnikası əldə edə bilmir. Bu zaman yol və idman motosiklərinin, motosikl mühərriklərinin, modelçilər üçün avadanlıqların, məqsədli kiçik çaplı tüfənglərin və patronların çatışmazlığı aydın dərəcədə hiss olunur. Məsələn, saniyəölçənlər qətiyən tapılmır, meqafon yoxdur. Burada da sənayenin yardımı mütləqdir.

İdmanın texniki və hərbi-tətbiqi növləri ilə məşğələlərə yeniyetmələrin geniş cəlb olunması və böyüməkdə olan nəslin hərbi-vətənpərvərlik tərbiyəsi hazırda KHVTİC-nin işində əsas istiqamətlərdən biridir. Bu vəzifə ilk təşkilatların fəallığının yüksəldilməsi və ümumtəhsil məktəblərində, texniki peşə məktəblərində, liseylərdə kütləvi müdafiə işinin gücləndirilməsi, yaşayış yerlərində yeniyetmələrlə aparılan tərbiyə işinin fəallaşdırılması, hərbi-vətənpərvərlik klublarının, gənc oğlanlar üçün texniki idman məktəblərinin yaradılması yolu ilə yerinə yetirilir. Təəssüflə qeyd etməliyik ki, məktəblilərin idmanın texniki və hərbi-tətbiqi növlərinə marağı azdır.

Azərbaycan KHVTİC ümumtəhsil məktəblərində və texniki peşə təhsili məktəblərində, liseylərdə idmanın hərbi-texniki növlərini daha da inkişaf etdirmək məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə birlikdə tədbirlər planı hazırlayıb. Həmin tədbirlərdə yeniyetmələr üçün yarışların sayının artırılması, maddi-texniki bazanın möhkəmləndirilməsi, ictimai kadrlar hazırlanması nəzərdə tutulur. Bu tədbirlərin həyata keçirilməsi məktəbli gənclər arasında müdafiə-idman işinin gücləndirilməsinə şərait yaradacaqdır.

Kadr hazırlığı məsələsi xüsusilə, ciddi problemlərdən biridir. İdmanın hərbi-texniki növlərində paradoksal vəziyyət yaranmışdır. Mürəkkəb, yüksək sürət və gərginlik idmanı ixtisaslı məşqçilər tələb edir. Lakin bu cür kadrlar hazırlayan sistem ölkədə yoxdur. Doğrudur, bir sıra ali məktəblərdə idmanın bu növləri üzrə yarışlar təşkil etməyi bacaran tələbələrin fakültətiv əsaslarla məşğələləri keçirilir. Lakin bu problemi həll etmir, xüsusilə də, ona görə ki, bir sıra hallarda bu cür məşğələlər aşağı səviyyədə keçirilir. Fakt budur ki, Bakı şəhərində idmanın hərbi-texniki növləri üzrə xüsusi təhsil almış heç bir məşqçi yoxdur. Təəssüf ki, bu sahədə iş ictimaiyyətçilərin qüvvəsilə, könüllülük əsasında aparılır. Düşünürəm ki, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının nəzdində idmanın texniki növləri üzrə xüsusi ixtisaslar yaradılması məqsədəuyğun olardı.

Mükəmməl təlim-məşq prosesi yüksək idman nəticələri qazanılmasında əsas olmasa da, hər halda böyük rol oynayır. Lakin idmanın hərbi-texniki növlərinə gəldikdə, etiraf etmək lazımdır ki, bu sahədə, o cümlədən idmançıların əxlaqi və psixoloji hazırlığı məsələlərində elmi tədqiqatların və tövsiyələrin köməyi heç də kifayət deyil.

Ölkəmizdə idmanın hərbi-texniki növlərinin nüfuz və əhəmiyyətinin artdığını nəzərə alaraq demək istəyirəm ki, müvafiq elmi tədqiqat, tibb və idman təşkilatlarının diqqətini bu məsələlərə cəlb etmək lazımdır. Hərbi-texniki idman növlərinin kütləviliyinin inkişafı problemi də hələ tamamilə həll edilməmişdir. Kənd yerlərində müdafiə-idman işi əsaslı surətdə yaxşılaşdırılmalıdır.

## Gənc nəslin fiziki və mənəvi sağlamlığına ciddi fikir verilir

Dövlətin və xalqın müqəddəratı gənc nəslin doğma torpağa məhəbbətindən, onun qorunmasına daim hazır olmasından, bir sözlə, vətənpərvərlik ruhunda tərbiyəsindən çox asılıdır. Fiziki sağlamlığı, texniki ustalığı olmayan vətəndaşın vətəni layiqincə müdafiə edə biləcəyini düşünmək sadəlövhlük olardı. Odur ki, ölkədə gənc nəslin fiziki və mənəvi sağlamlığına, o cümlədən texniki vərdişlərə yiyələnməsinə dövlət səviyyəsində ciddi fikir verilir. Xalqımızın ümummilli lideri Heydər Əliyev gənclərin fiziki və mənəvi sağlamlığına dövlət qayğısının vacibliyi haqqında demişdir: “Biz çalışırıq ki, xalqımız sağlam olsun, gənc nəsillər sağlam yetişsinlər. Xalqımızın həm fiziki sağlamlığını, həm şüuru, mənəvi sağlamlığını təmin etmək dövlətçiliyimizin ali məqsədi, vəzifəsidir”.

Bu vəzifəni yerinə yetirmək üçün idmanın inkişafına, gənclərin texniki hazırlığının yüksəldilməsi məsələlərinə xüsusi fikir verilir. Əvvəlcə “DOSAF” kimi tanıdığımız hazırkı Könüllü Hərbi-Vətənpərvərlik Texniki və İdman Cəmiyyəti gənclərin fiziki hərbi və texniki hazırlığının yüksəldilməsi ilə birbaşa məşğul olan çoxşaxəli tədris müəssisəsidir. 1927-ci ildən fəaliyyət göstərən bu cəmiyyətin 56 texniki idman klubu və 20 texniki aviasiya, avtomobil və hərbi dənizçilik məktəbinin vasitəsilə 1992-ci ildən bu günədək respublikamız üçün 17 mindən çox kadr hazırlanıb”.

Gənclərin fiziki hazırlığı, hərbi və texniki vərdişlərinin yüksəldilməsi işi ilə məşğul olan KHVTİC dövlətin bu istiqamətdə proqramını həyata keçirir. KHVTİC-də 7-8 ixtisas üzrə kadr hazırlanır. Texniki-hərbi idman növlərinin inkişafına daha çox fikir verilir. Hazırlanmış idman ustaları, ustalığa namizədlər, məşqçilər və idmançılar müxtəlif səviyyəli yarışlarda respublikamızı layiqincə təmsil edirlər.

Müstəqilliyimiz dövründə Azərbaycan Könüllü Hərbi Vətənpərvərlik Texniki İdman Cəmiyyəti (AKHVTİC) Respublika Şurasının 1 saylı Bakı Birləşmiş Texniki Mərkəzinin işi qənaətbəxşdir. Belə ki, AKHVTİC Respublika Şurasının vəsaiti hesabına “Avtouniversal” Məhdud Məsuliyyətli Cəmiyyətdən alınmış “Fiat Albea-1.4” və “Fiat Albea Sole-1.4” markalı yeni təlim-minik maşınlarından xalq təsərrüfatı və silahlı qüvvələr üçün hazırlanan gənc sürücülərin təlim məşqlərində istifadə olunur. Xalq təsərrüfatı və silahlı qüvvələr üçün peşəkar, müasir texnikanı idarə edə bilən savadlı sürücü kadrları hazırlamaq məqsədilə təlim-məşq vasitələrinin günün tələblərinə cavab verməsi zəruridir. Köhnəlmiş avtmobillərin təlim-tədris texnikası sıralarından çıxarılması prosesinə başlamasının səbəbi də məhz budur. Cəmiyyət hər il xalq təsərrüfatı və silahlı qüvvələr üçün yüzlərlə gənc sürücü hazırlayır.

Gənclərin texniki hazırlığının yüksəldilməsi üçün mükəmməl texniki idman vasitələri lazımdır. Keçmiş SSRİ məkanında, xüsusi ilə, 1988-ci ildən başlayaraq cəmiyyətə bu qurğuları və texniki idman vasitələrini mümkün qədər az verməməyə çalışırdılar. Ancaq müxtəlif imkan və əlaqələrdən istifadə olunmaqla 1990-1991-ci illərdə ölkəmizə 130 adda təlim maşınları gətirilmişdir. Həmin ehtiyat hesabına respublikamızda hərbi-texniki idmanın müxtəlif növləri üzrə geniş və mükəmməl hazırlığa nail olmaq üçün cəmiyyətin rəhbərliyi əllərindən gələni edirlər. Gənclərimizin mükəmməl atıcılıq vərdişlərinə yiyələnmələri naminə şəhər və raoyn mərkəzlərindəki tirlər hazır vəziyyətdə saxlanılıb. Bəzilərinin iddialarının əksinə olaraq, tirlər nəinki özəl müəssisələrə verilməyib, əksinə orada kiçik çaplı tüfənglərdən atəş açmaq üçün tələb olunan puldan belə imtina edilib. İndi istənilən tirlərdə gənclərimiz pul ödəmədən atıcılıq vərdişlərinə yiyələnirlər.

## Müasir həyatımızın dinamik inkişafı üçün müəyyən tələblər var

Azərbaycan türkləri tarixən cəsur və döyüşkən olublar. Bu indi də belədir. Sadəcə olaraq, gəncləri təşkil etmək, onların döyüş ruhunun və hazırlığının yüksəlməsi qayğısına qalmaq lazımdır. Əslində hərbi-vətənpərvərlik tərbiyəsi hər birimizin işidir. Əvvəllər hərbi vətənpərvərlik tərbiyəsi indiki kimi könüllülük prinsipinə əsaslansa da, respublikamızın bütün tədris və tərbiyə müəssisələrində bu işə xüsusi fikir verilirdi. Təhsil Nazirliyi bu istiqamətdə aparılmalı olan işlərə önəm verməyə başlayıb. Xətai, Dəvəçi, Siyəzən, Sabunçu, Qəbələ, Nizami, Yasamal, Sabirabad rayonlarında tirlərin təşkili məsələsi yüksək səviyyədə qurulub. Ancaq müharibə vəziyyətində olan ölkə kimi, biz gənclərin hərbi-texniki hazırlığına, fiziki və mənəvi sağlamlığına daha çox diqqət yetirməliyik.

Cənclərin Silahlı Qüvvələrdə xidmət etməyə hazırlama məsələləri fiziki tərbiyə sisteminin müxtəlif bölmələrində həll olunur və həmişə də həlli müsbət olmur. Hərbi-texniki idman növlərində bədən tərbiyəsi və idman vasitələri ilə yüksək dərəcəli ixtisasçılar gənclərin Ordu sıralarına və Hərbi Dəniz Donanması üçün hazırlıq aparırlar. Hərbi-texniki idman növlərinin gələcək inkişaf yollarını müəyyənləşdirmək və yaranmış vəziyyəti təhlil etməklə gənclərin hərbi xidmətə hazırlıq sisteminin təkmilləşdirilməsinə kömək etmək mümkündür.

Hərbi-texniki idman növlərinin inkişafı müxtəlif istiqamətdə işlərin qarşılıqlı əlaqəli şəkildə aparılmasını tələb edir. Hərbi-texniki idman növlərinin plan üzrə inkişafı hərbi hazırlığı qismən tədris ocaqlarında həyata keçirməyi, onun kütləviliyini artırmağı tələb edir.

Təhlillər göstərir ki, hərbi-texniki idman növlərinin inkişafı məhz bu prinsiplə gedərsə, kütləviliyin artması barədə danışmaq mümkündür. Kütləviliyi müəyyənləşdirən göstərici əhalinin idmana geniş cəlb olunmasını tələb edir. Digər tərəfdən, kütləviliyi müəyyənləşdirən göstərici ilin yekununa görə respublikamızın qazandığı nailiyyətlər arasında rəvan qarşılıqlı münasibət olduğunu aşkara çıxarır. Araşdırmalar sübut edir ki, gənclərin hərbi-texniki idman növlərinə cəlb edilməsi sistemi kifayət qədər təkmilləşməyib. Hərbi-texniki idman növlərinin inkişafını əsasən üç amillə müəyyənləşdirirlər: 1) kütləviliklə eyniləşdirmə seçiminin dispersiya cəmində ən yüksək yer tutması; 2) əhalinin idmana cəlb edilməsi; 3) respublikanın uğurları.

Yuxarıda deyilənlərdən belə qənaətə gəlirik ki, hərbi-texniki idman növləri üzrə tələbati uyğunluq fiziki tərbiyə sisteminin nəzəriyyəsinin qəbul etdiyi əsas normativlər əsasında aparılmalıdır. Lakin avia, avto, moto, paraşüt və radio idmanında bu prinsipə riayət olunmur. Bu isə kütləviliyin inkişafına mənfi təsir edir. Qeyd etmək lazımdır ki, fiziki və hərbi-texniki hazırlıq iki ayrılmaz hissə olub, bir-birini tamamlayır. Bu iki ayrılmaz hissə bədən tərbiyəsi və idmanla zənginləşir.

Çağırışaqədərki hazırlıq prosesinin əsasında bədən tərbiyəsi və idmanın inkişaf ənənəsinin bünövrəsi qoyulur. Xüsusən, fiziki tərbiyə və idman çoxfunksional, çoxməqsədli fəaliyyət sistemi olub utilitar xarakterli məsələlərin həllində konkret imkanlara malikdir. Belə istiqamət çağırışaqədərki yaşda bədən tərbiyəsi və idmanın tətbiqi növü nöqteyi-nəzərindən çox mühümdür. Tətbiqilik vəzifəsinin həlli konkret bədən tərbiyəsində, məsələn, çağırışa qədər hazırlıq elementi bədən tərbiyəsinin əhəmiyyətini göstərir, sosial mühitlə bədən tərbiyəsi və idmanın qarşılıqlı əlaqəsinə təminat verir. Bu mövqedən ilk hərbi hazırlıq prosesində VMH kompleksi əsasında çağırışçı və çağırışa qədər gənclərin hazırlığının təşkili və metodikası məsələləri həll olunmalıdır.

Bu iş üçün irəli sürülmüş birləşmə haqqında nəzəriyyənin o mənada əhəmiyyəti var ki, hərbi-texniki idman növlərinin yeri və rolu “bədən tərbiyəsi və idman mühiti”nə münasibətdə ümumi fiziki hazırlıq və çağırışa qədər hazırlıq sisteminin təşkili gerçəkləşdirilsin. Birləşmənin müxtəlif növləri öz təsdiqini sosial institutla bədən tərbiyəsi və idmanın hərbi-texniki idman növlərinin (HTİN) və ümumi fiziki hazırlığın (ÜFH) qarşılıqlı əlaqəsində tapa bilir:

- Hərbi-texniki idman növləri (HTİN) və ümumi fiziki hazırlıq olaraq (ÜFH) burada mədəni mühit kimi harmonik inkişaf problemi məsələlərinin həlli, başqa sözlə desək, şəxsiyyətin inkişafı ilə əlaqədar vəzifələr həll olunur;
- Hərbi-texniki idman növləri (HTİN) və ümumi fiziki hazırlıq (ÜFH) professional hərbi fəaliyyət kimi hərbi-texniki idman növləri və ümumfiziki hazırlıq metodları, hərbi-hazırlıq və onun təkmilləşməsi ilə vəzifələrin formalaşması yolu ilə həll olunur.

Ardıcıl olaraq hərbi-texniki idman növləri və ümumi fiziki hazırlıqda, çağırışa qədərki hazırlıqda ikinci dərəcəli funksiyalar yoxdur, bütün funksiyalar bu məqsədlərə müvafiqdir, yalnız tətbiqetmə mühiti dəyişilir.

Müasir həyatımız dinamik inkişafdadır və biz də istər-istəməz bu inkişafın tələblərinə uyğunlaşmalıyıq. Elm və texnikanın yüksək inkişaf etdiyi və torpaqlarımızın işğal altında olduğu bir dövrdə hərbi-texniki idman növlərinin kütləviliyinin təmin edilməsi günün tələbidir.

***Dilqəm Quliyev***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

Şahmat

## Bolqarıstanlı qrossmeyster liderliyini davam etdirir

Şəmkirdə mərhum qrossmeysterimiz Vüqar Həşimovun xatirəsinə həsr olunan “Shamkir Chess-2018” superturniri davam edir.

Yarışda VI turun oyunları keçirilib. Azərbaycanlı şahmatçılardan Teymur Rəcəbov ağ, Şəhriyar Məmmədyarovla Rauf Məmmədov isə qara fiqurlarla oynayıb.

Teymur Rəcəbovun rəqibi yarışın autsayderlərindən olan polşalı Radoslav Voytaşek olub. Qrossmeysterimiz bu dəfə də heç-heçə seriyasını davam etdirib.

Millimizin lideri Şəhriyar Məmmədyarov sonuncu sıradan qurtulmaq üçün Dinq Lirenə qalib gəlməli idi. Lakin zəka sahibimiz yekunda bərabərliklə kifayətlənib.

Digər təmsilçimiz Rauf Məmmədovun rəqibi isə daha çətin olub. “Qaralar”la oynayan Rauf Məmmədov turnir cədvəlinin lideri Veselin Topalovla heç-heçə edib.

Bu turda yeganə qələbəni Hollandiya təmsilçisi Aniş Qiri qazanıb. O, çexiyalı David Navaraya qalib gəlib. Turun digər oyununda isə rusiyalı Sergey Karyakin norveçli Maqnus Karlsenlə heç-heçə edib.

6 turdan sonra hesabında 4 xal olan V.Topalov liderliyini davam etdirir. M.Karlsen və A.Qiri 3,5 xalla 2-3-cü yerdə qərarlaşıblar. T.Rəcəbov, R.Məmmədov, D.Liren, S.Karyakin 3 xalla 4-7-ci, Ş.Məmmədyarov və R.Voytaşek 2,5 xalla 8-9-cu pillələri bölüşürlər. D.Navara isə 2 xalla sonuncudur.

### “Shamkir Chess-2018”

**VI tur**

**25 aprel**

Teymur Rəcəbov (Azərbaycan, 2748) - Radoslav Voytaşek (Polşa, 2744) - 0,5:0,5

Sergey Karyakin (Rusiya, 2778) - Maqnus Karlsen (Norveç, 2843) - 0,5:0,5

Veselin Topalov (Bolqarıstan, 2749) - Rauf Məmmədov (Azərbaycan, 2704) - 0,5:0,5

Aniş Qiri (Hollandiya, 2777) - David Navara (Çexiya, 2745) - 1:0

Dinq Liren (Çin, 2778) - Şəhriyar Məmmədyarov (Azərbaycan, 2814) - 0,5:0,5

* * *

Vüqar Həşimovun xatirəsinə həsr olunan “Shamkir Chess-2018” superturnirinin iştirakçıları və təşkilatçılar arasında futbol turniri keçirilib.

Şəmkir Olimpiya İdman Kompleksində təşkil olunan yarışda 4 komanda mübarizə aparıb. Azərbaycan və xarici şahmatçılardan ibarət komandalarla yanaşı, yarışda “Shamkir Chess-2018” superturnirinin təşkilatçılarından formalaşan iki kollektiv də çıxış edib.

Final oyununda Azərbaycan komandası ilə heyətində xarici şahmatçıların çıxış etdiyi “Dünya yığma”sı üz-üzə gəlib. Maraqlı anlarla yadda qalan həlledici görüş “Dünya yığma”sının 2:1 hesablı qələbəsi ilə yekunlaşıb.

“Dünya yığma”sının turnirdə bütün qollarını dünya çempionu Maqnus Karlsen vurub. Ümumilikdə norveçli şahmatçı 6 qolla yarışın bombardiri olub.

* * *

Vüqar Həşimovun xatirəsinə həsr olunan “Shamkir Chess-2018” superturnirinin iştirakçıları Şəmkirdəki “Zəka” Gənclər Mərkəzində yeniyetmələr və şahmat həvəskarları üçün seans keçiriblər.

Yeniyetmə şahmatçılarla görüşdə həmyerlilərimiz Şəhriyar Məmmədyarovla Rauf Məmmədov, eləcə də dünya çempionu Maqnus Karlsen, Rusiya təmsilçisi Sergey Karyakin, Çexiya qrossmeysteri David Navara iştirak ediblər.

* * *

Azərbaycan şahmatçısı Günay Məmmədzadə 2019-cu il dünya çempionatında iştirak hüququ qazanıb.

Günay Məmmədzadə Avropa çempionatının 14 iştirakçısı siyahısına daxil ola bilib. Dünya çempionatına lisenziya alanların siyahısında Günay 10-cu yerdə qərarlaşıb.

Qeyd edək ki, Slovakiyada keçirilən Avropa çempionatında Azərbaycanı, həmçinin Ülviyyə Fətəliyeva, Xanım Balacayeva, Türkan Məmmədyarova, Gülnar Məmmədova və Zeynəb Məmmədyarova təmsil ediblər və onlar dünya çempionatına vəsiqə qazana bilməyiblər.

*“Qaradağ rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər”*

# Qaradağ: keçmişlə gələcəyin qovuşduğu məkan və canlı tarixə söykənən həqiqət

Qocalıq müdriklikdir, deyirlər. Yaş insanı köhnəltmir, əksinə keçmişini bugününə və ötənləri gələcəyə çatdırır. İllərin sınağından keçən bir nurani insanla söhbət zamanı bunu hiss etdim. O, qatar yolundan azacıq kənarda, köhnə bir soyuducunun üstündə oturub, ətrafa boylanırdı. Mən isə onun diqqətini yayındırmadan, bu insanı başdan ayağa süzürdüm. Elə bil illərin yükü var idi üzərində. Daşıyıb ünvanına çatdırmışdı. Çatdırdığı üçün də xoşbəxt idi. Hiss olunurdu ki, ömür qatarının sadiq sərnişini olub. Həyatından razı, gördüklərindən isə razı qalan birisi idi qoca. Məni yaxınlığında görüb hiss etdi ki, ondan nəsə soruşmağa cəhd edirəm. Milli mentalitetimizə uyğun olaraq salamlaşıb, əlini iki əlimlə sıxdım. Bu əllər illərin sınağından çıxmışdı. Onun qırışmış əllərində zəhmətin, cəfanın və bitməyən enerjinin olduğunu hiss etdim. Üzümə baxıb soruşdu:

- Bala, sən hara, bura hara? Heç bizim “posyolka”nın adamına oxşamırsan.

Hiss etdim ki, bu nurani kişi yerli sakinlərdən biridir. Onu intizarda saxlamayıb, bildirdim ki, bəs mən bu rayon haqqında yazı yazmaq istəyirəm. Söhbətdən anladı ki, mən jurnalistəm. Bir az fikri yayındı. Yenidən qatar yoluna diqqətini yönəldib, dərindən köks ötürdü. “Deyəsən, mən öz müsahibimi tapmışam”, - deyə içimdə bir rahatlıq tapdım.

- Dayı, bu qəsəbə haqqında mənə məlumat verə bilərsən?

- Hə, səni nə maraqlandırır? - deyib, əlindəki çəliyini özünə tərəf sıxaraq yerə dirədi.

- Qaradağ haqqında maraqlı nə bilirsən?

- Mən köhnə dövrün adamıyam. 87 yaşım var. Amma hər şey yadımdadır. Bu ərazi bəlkə də respublikanın ən qədim yeridir. Anadan olanda buranı Puta “posyolkası” adlandırdılar. Səhv eləmirəmsə, bu adı 1923-cü ildə veriblər. O vaxtdan da mən buranı Puta kimi qəbul etmişəm. Özümdə putalıyam. Zaman keçdi. Çox adlar verdilər buraya. 1937-ci il. O illərdə sən yox idin. Babaların yaxşı bilər. Çox çətin illər idi. Həmin vaxt gənc idim. Eşitdim ki, rayonu Mikoyan adlandırıblar. Yerli adamlar isə buna heç də sevinmirdi. Ümumiyyətlə, bu rayonun adı çox dəyişilib. 1956-cı ildə Mikoyan adının əvəzinə Molotov oldu. 7-8 ildən sonra öz dilimizdə, anladığımız şəkildə buraya Qaradağ adı verdilər. Putalılar üçün bu ad yeni deyildi. Dəmiryolçu olduğum üçün mən bildirim ki, buraya nə üçün “Qaradağ” adı vermişdilər. Çünki Zaqafqaziyanın ilk dəmiryolu stansiyalarından biri Qaradağda yerləşirdi. Bura doğurdan da qədimi yerdir. Özünün keçmişi və sakinlərinin özünəməxsus adət-ənənələri var. Bugünə kimi burada hər şey əvvəlki kimi qorunub saxlanır.

Təsadüfi müsahibim bunları danışdıqca, cib dəftərimi götürüb, xırda qeydlər edirdim. Fikrimdə var idi ki, sonradan bu qeydləri dəqiqləşdirim. Bu, inamsızlıqdan irəli gəlmir. Sadəcə olanları ətraflı öyrənmək və rəqəmləri bir nizama salmaq yerinə düşərdi. Bu mənim peşəmdən və bitməyən istəyimdən irəli gəlir.

- Heç olub ki, Putanı tərk edib, başqa yerdə yaşamaq istəmisən?

- Yox, İnsan elinə, obasına, heç vaxt dönük çıxmaz. Mən buralıyam, mənə burada xoşdur. Körpəlikdən ahıl yaşıma qədər bu məhəllədə yaşamışam. Hər bir qarışı doğmadır mənə. Gözüm bağlı, ətraf zülmətə qərq olsa belə, mən qəsəbədə azmaram, - deyib bir daha dərindən köks ötürdü.

Bu özünəinamın və xoş əhvalın təcəssümü idi.

- Qaradağın mərkəzi hara sayılır: Lökbatan yoxsa Səngəçal?

- Mərkəzi ərazi Lökbatan olub. Biri var Ceyranbatan, biri var Lökbatan. “Lök” dəvə deməkdir. Yəqin eşitməmiş olmarsan. Bu ərazinin adı karvan yolları ilə bağlıdır. Əsrin əvvəllərində buradan ticarət və neft daşıyan karvanlar keçirdi. Hər tərəf palçıq və gölməçələr dolu idi. Dəvələrdən başqa, heç bir nəqliyyat vasitəsi bu maneələri aşa bilmirdi. Bunu mən böyüklərdən eşitmişəm. Görünür Lökbatan sözü buradan yaranıb. “Primorsk”da (Sahil) bizim əraziyə aiddir, Lökbatandan sonra ikincidir. “Qaradağ sementi” adı ilə tanınır. Sement adı çəkiləndə hər yerdə Qaradağ yada düşürdü, - deyib fikirli-fikirli səmanı seyr etdi.

Ətraf o qədər sakit idi ki, onun ağır nəfəsini belə duymaq olurdu. Bir anlıq elə düşündüm ki, sualımın cavabı bununla bitmişdi. Amma birdən qoca nəsə düşünüb qaldığı yerdən davam etdi:

- Yadıma gəlir, qonşuluğumuzda Vaqif adında bir oğlan yaşayırdı. Məndən bir neçə yaş böyük idi. Dəmiryolunda işləyəndə onunla tanış olmuşdum. O sement zavodunda işləyirdi. Əvvəl sement zavodu Keşlədə yerləşirdi. Vaqiflə söhbət zamanı öyrənmişdim ki, o zavod şəhərin mərkəzindəki ekologiyaya təsirə görə bura köçürülmüşdü. Amma başqa bir səbəb də var idi. Buradan istehsal olunan məhsulu hər yerə çatdırmaq olurdu. Zavodun yeni yeri düşərli olmuşdu. Dəniz kənarına yaxın tikilən zavodun işçiləri tezliklə burada yaşayış üçün, kiçik evlər tikdilər. Özü də xalis sementdən. Yadıma gəlir, heç bir-iki il keçmədi ki, zavoda yaxın ərazidə böyük bir qəsəbə yarandı. Yerli camaat da işlə təmin olunmağa başladı. Qaradağın böyüməsində sement zavodunun rolu az olmadı.

Qoca kişi danışdıqca, gözümün qarşısında kino lenti fırlanırdı. Bir tarix öz ağ-qara cizgiləri ilə yenidən canlanırdı. O kadrlarda mənzərələr ağır və sadə görüntülərlə bir-birini əvəz edirdi. Kadrın qəhrəmanı isə adını çəkməyimi israr edən yaşlı, nurani qocadır. Vaxt elə keçmişdi ki, 1 saat qocanı sorğu-sual etməyimi hiss etməmişəm. Deyirlər, yaşlılar bir qədər kövrək və küsəyən olur. Onun timsalında bunu duymaq elə də çətin deyildi. Fikirləşdim ki, yadıma düşmüşkən, qeyd dəftərimdəki toponimlərin adlarını, mənşəyini ona sual kimi verib cavab alım. Hər şey ola bilər. Birdən ani qərar verib, söhbətimizi müxtəsər edər, çıxıb gedər, hər şey yarımçıq qalar... Bəs tarixi kimdən öyrənərəm? Çox yox üç sualım qalmışdı. Əgər söhbətdən yeni bir sual pöhrələnməsə... Lakin hiss edirdim ki, ağsaqqal tələsir. Mədəniyyəti və nuraniliyi imkan vermirdi, mənə desin ki, daha bəsdir. Yormuşdum deyəsən onu. Qalan bir-iki sualımı saxladım və dedim:
















- Ağsaqqal sənə əziyyət verdim. Görünür, səni uzun müddətdir ki, bu qədər danışdıran olmamışdı. Üzrlü hesab elə. Yolundan saxlamayım.

Bu sözlərdən sonra üzümə baxıb dedi:

- Yox, oğlum, mənə xoş oldu. Müalicə alıram. Nəvəm həkimdir, mənə iynələri o vurur. Yəqin indi narahat olar. Səninlə danışmaqdan məmnun oldum. Gedək qonağım ol. İstəsən söhbətimizi evdə davam etdirərik.

- Sağ ol dayı, mən artıq yazımın əsas hissəsini həll etmişəm. Mənə çox kömək etdin. Qalanın da özüm araşdırıb tapacam. Sənə təşəkkür edirəm. Çox yaşa. Allah sənə ürəyin istəyən qədər ömür və şəfa versin. Mən gedim.

Bu sözləri deyib, onunla sağollaşdım. Yola çıxıb, marşrut gözləmək üçün dayanacağa tərəf üz tutdum.

Dayanacaqda olduğum müddətdə qoca qadın əlində kart mənə yaxınlaşaraq ona kömək etməyimi istədi. Tez kartı onun əlindən alaraq gediş haqqı yükləmək üçün aparata yaxınlaşdım. O, məndən buralı olub-olmadığımı soruşanda cavabında “qonaq gəlmişdim” dedim. Kartı alandan sonra təşəkkür edib, məndən uzaqlaşdı. Bəxtimdən, avtobus gözləməyə çox vaxt itirmədim. 125 nömrəli marşruta minərək üzü şəhərə tərəf getdim. Elə oldu ki, avtobusda həmin qadının yanında əyləşməli oldum. Sağa dönüb məni görcək üzündə təbəssüm yarandı. Ədəb-ərkanla oturub, qeyd dəftərimi çıxardım. Hiss etdim ki, yanımdakı yaşlı xanımın diqqətini cəlb etmişəm. Vərəqlərdə yazdığımı oxumağa çalışırdı. Amma universitet vaxtı, həkim reseptinə bənzəyən və mühazirələrdə qarma-qarışıq mənimsədiyim yazı üslubundakı qeydləri oxuya bilmədi. Nəfəsini dərib, bayaqdan soruşmaq istədiyini dilə gətirdi

- Qonaq gəlmişdin deyirsən, amma qonaqdan çox tələbəyə oxşayırsan. Amma tələbə də deməzdim.

- Yox tələbə deyiləm, xanım. Yazı yazmaq üçün sizin tərəfə gəlmişdim, - deyib, dodaqaltı gülümsündüm.

- Jurnalistsən deməli. Hansısa bir yerdə tədbir keçirilirdi? Nəyin açılışı idi?

- Açılış deyildi, sadəcə, qəsəbənizdən məqalə yazmaq üçün gəlmişdim. Pis alınmadı. Bir sakinlə görüşdüm. Mənə yaxşı təsir bağışladı. Rayonun tarixindən xeyli danışdı. Qaradağ barəsində xeyli məlumat topladım. Amma...

- Nə amma?

- Ətraflı danışa bilmədim. Bir iki sualım qalmışdı. Amma müalicəsinə görə imkan olmadı.

Hiss etdim ki, bu yaşlı xanım həmin söhbəti davam etdirmək istəyir. Bir sözlə maraqlıdır ki, öz qəsəbələri haqqında yazılan yazıda bir-iki fikiri də, o desin. Amma nədənsə ürək eləmir. Suallarımın cavabsız qalacağından çəkinirdi.

- Narahat olmayın xanım, elə bir çətin sual deyil. Sadəcə mənə maraqlıdır ki, buradakı bəzi qəsəbələrin adları hansı mənanı verir? Məsələn, “Korgöz”, “Ələt”, “Duvannı” və “Qızıldaş”.

- Korgöz? Mən eşitdiyimə görə bu adın mənası qadın və qız adlarından götürülüb. Səhv eləmirəmsə, Kərgəz və Gülgəz olmalıdı. Massivin əvvəlki adını 2000-ci ildə qaytardılar. Buna qədər oraya neftlə əlaqədar olaraq “Azenes” (o əslində yerli sakinlər tərəfindən səsləndirilən tərzdə yerin adın işlətmişdi. AZNS “Azneftsənaye” idarəsinin burada yerləşməsi ilə əlaqədar olaraq adlandırılmışdı-A.Ə) Ələt qəsəbəsinin adı isə “dənizdən görünən yer” deməkdir. İki əsrə yaxındır ki, bu ad öz mənşəyini itirməyib. Əvvəl burada balıqçılar yaşıyardılar. Sonra yaxın dağ rayonlarından gələnlər buradan qışlaq kimi istifadə edib, elə burada da qalıblar. Ələt çox rahat bir ərazidir. Burada böyük stansiya (1881-1884-cü illərdə Bakı-Tbilisi və 1921-1924 Bakı-İrəvan dəmir yolları Ələt qəsəbəsinin ərazisində keçirdi - A.Ə) var. Ələt əvvəl Hacıqabula aid idi. İndi isə bizim rayonun ərazisinə daxildir. Söhbətimiz maraqlı keçirdi. Avtobus isə sürətlə ünvana yaxınlaşmağa tələsirdi. Mən öz növbəmdə yalnız bir sual verməyə çalışırdım. Soruşdum ki, rayon barəsində onun sakini nəyi düşünür?

Yol yoldaşım isə öz növbəsində, bütün düşüncələrini səfərbər edib bunları dedi:

- Mən özüm Səngəçalda yaşayıram. Əvvəl burada hər tərəf sönük və ürəksıxıcı idi. Lakin hər yerdə olduğu kimi bizim tərəflərdə də abadlıq işləri oldu. Uzun müddət bu yerlərdə yaşayanlar, bir vaxt buraları tərk edənlər indi özləri belə Qaradağın müasirliyinə heyran olurlar. Qəsəbədə müasir məktəblər, yeni parklar və zavodlar istifadəyə verilib. Rayon İcra Hakimiyyətinin işini hər birimiz yüksək qiymətləndiririk. Nəqliyyat problemimizdə həll olunub. Əvvəllər saatlarla avtobus gözləyirdik. Amma indi özün gördüyün kimi Bakıya gələn müasir avtobuslardan biz də istifadə edirik. Mən bir sakin kimi yaradılan şəraitdən razıyam. Bu qədər... Beləcə mən öz ünvanıma, xanım da gedəcəyi yerə yaxınlaşdı. Sağollaşıb bir-birimizə uğur dilədik.

Yol boyu nəzərimdə tutmuşdum ki, redaksiyaya çatan kimi yazını bir nəfəsə ərsəyə gətirəcəm. Doğrudan bu səfərim mənə yaxşı təsir bağışlamışdı.

Yazını olduğu kimi elə bu tərzdə, düşündüyüm mövzuda yazdım. Sərbəst janrda yazılan yazıda, yalnız bir məsələni qeyd etmək istəyirəm ki, Qaradağ rayonu həm keçmişi, həm də bu günü ilə diqqət mərkəzindədir. Qədim Qobustandan, Xəzər sahilindən, minlərlə ünvanı birləşdirən dəmir yolundan, doğma yurd həsrəti ilə yaşayan köçkünlərin pənahı olan “Ümid” qəsəbəsindən, Səngəçaldan, Qızıldaşdan, Ələtdən və digər massivlərdən söz düşəndə bunu demək olar: “Qaradağ sakinləri böyük keçmişi və parlaq gələcəyi olan bir məkandır. Onun gözəl və səmimi sakinləri var”.

***Anar Əhmədov***

*“Qaradağ Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün”*

*Unutsaq, unudularıq*

# Həyatını idmana həsr edən veteran voleybolçu

***Onu Şuşada həyatını həsr etdiyi idman növünə böyük sevgi yaradan məşqçi, adlandırsaq, heç də yanılmarıq. Bir vaxtlar ölkəmizin dilbər guşələrindən biri olan Şuşada bu idman növünün tanınması məhz onun adı ilə bağlıdır. İdmana olan sonsuz həvəs, yüksək insani keyfiyyətlər Oqtay müəllimin bu cür tanınmasına zəmin yaradıb.***

***Oqtay Axundov 18 oktyabr 1946-cı ildə Şuşa şəhərinin "Mamayı" məhəlləsində anadan olub. 1953-cu ildə Şuşa şəhər 1 nömrəli orta məktəbin 1-ci sinfinə getib, 1963-cü ildə həmin məktəbin 10-cu sinfini bitirib. 1963-cü ildə S.M. Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna (indiki AzDBTİA) daxil olub, 1967-ci ildə həmin institutunun məzunu olub. Oqtay Axundov elə 1-ci kursda oxuyarkən institutun yığma voleybol komandasının tərkibinə daxil edilib. O, yığma komandanın tərkibində respublika yarışlarında və ölkədən kənarda bədən tərbiyəsi institutlarının birinciliyində iştirak etmişdir. Həmin vaxt Oqtay öz oyun üslubuna görə məşqçilərin diqqətini özünə cəlb edirdi. Onun yüksək oyun texnikası və taktikasına yiyələndiyindən, komandanın tərkibində əsas oyunçu kimi özünə yer tapdı. Oqtay Axundov institutun yığma voleybol komandasının tərkibində Kiyevdə, İrəvanda və Alma-Atada SSRİ birinciliyinin tələbə oyunlarında iştirak edib və bir sıra mükafatlarla təltif edilib. Oqtay Axundov idman oyunları üzrə güclü bir mütəxəssis ixtisaslaşmış bir kadr kimi işə başlayır. Oqtay Axundov ilk dəfə peşəkar fəaliyyətə də Şuşa Pedaqoji məktəbində başlayıb.***



Ümumiyyətlə, Azərbaycan voleybolunun şöhrəti Dağlıq Qarabağa da öz təsirini göstərib. Burada da yarışlar keçirilir, maraq daha da artırdı. O cümlədən Ümumittifaq daxilində "kurort şəhəri" sayılan olan Şuşada bu müdrik, gözəl və incə oyuna çox fikir verilirdi. Şəhərin yeganə idman oyunları meydançası voleybol üçün yararsız olsa da, tezliklə burada iməclik yolu ilə meydança genişləndirildi və ardı-arası kəsilməyən məşqlər başlandı. Rayon ictimaiyyəti də bu təşəbbüsü bəyəndi. Rayon komsomol komitəsinin və ictimai təşkilatların köməyi ilə idman avadanlıqları alındı. Başqa rayonların komandaları ilə yoldaşlıq görüşləri keçirildi. Şuşa voleybolunun veteranlarından Tağı Tağıyev, Ağakişi Ağayev, Əbülfət Tağıyev, Əli Mirzəyev, Məmməd Məmmədov, Tofiq Paşayev, Bəşir Hüsyenov, İspən İsmayılov və başqaları öz oyun təcübələrini yeni yaranmış komandaya böyük həvəslə öyrədirdilər.

## Bir qələbədə "ən kiçik"dən "ən böyük" pay

Dağlıq Qarabağ üzrə təşkil olunan voleybol yarışları həmişə maraqlı və gərgin keçib. Tezliklə komandamızın şöhrəti bütün Azərbaycana yayıldı. Laçın, Ağdam, Füzuli və qonşu respublikaların komandaları ilə keçirilən yoldaşlıq görüşləri oyunçularımızın fiziki, texniki və taktiki hazırlıqlarının möhkəmlənməsinə kömək etdi. Komandanın kapitanı Zakir Məmmədovun dedikləri:

- 1962-ci ilin yazı idi... Bakının "Dinamo" komandası Xankəndidə keçirilən ölkə birinciliyi yarışlarında iştirak edirdi. Həmin günlərin birində onlarla yoldaşlıq görüşü keçirməyi qərara aldıq. Oyun Şuşada keçirildi. Ancaq o gün ara verməyən leysan belə oyunun keçirilməsinə mane olmadı. Şəhərin mərkəzində yerləşən idman oyunları meydançasını çoxsaylı azarkeşlərin köməyi ilə benzinlə qurutdular. Bir qədər sonra maraqlı oyun başlandı. Şuşanın yığma voleybol komandası bu güclü kollektivə 2:1 hesabı ilə qalib gəldi. Qələbənin qazanılmasında Zakir Məmmədovun, Bəşir Hüseynovun, Robertin və Albert qardaşlarının, Sərdar İsmayılovun, Camal Bəylərovun, Fətəli Fətəliyevin, Oqtay Axundovun, Nadir Məmmədovun, Rza Axundovun və başqalarının böyük xidməti olmuşdur. Həmin qarşılaşmanı görənlər o günü heç vaxt unutmurlar. Mən də, maraqlı və gərgin keçən həmin oyunun şahidlərindən biriyəm (onda mənim 11 yaşım var idi - Ə.N).

Komandanın tərkibində həmin oyunda Oqtay adında bir gənc də öz qüvvəsini sınayırdı. O, bütün komanda yoldaşlarından ən kiçiyi olsa da, oyununa görə yoldaşlarından geri qalmırdı. Çətin vurulan topları ustalıqla qəbul edir, ötürür, aldadıcı fəndlər işlədir, yeri gələndə hücuma keçir, öz məharətini göstərirdi. Tezliklə idman həvəskarlarının hörmətini qazanan bu gənc oğlan gələcəyini idmana bağladı.

## Böyük uğurların təməlində təcrübə əsas rol oynayır

Oqtay Axundovda voleybola həvəs hələ uşaq yaşlarında oyanmışdır. VIII sinifdə oxuyarkən rayonun yığma komandasının tərkibinə qəbul edilmişdir. Oyun texnikasına yiyələndikcə bu idman növünə marağı daha da artırdı. Elə bu maraq onu 1963-cü ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstituna gətirib çıxartdı. İmtahanları müvəffəqiyyətlə verib pedaqoji fakültənin voleybol bölməsinə daxil oldu. Burada da o, tezliklə öz gözəl, məzmunlu oyunu ilə institut mütəxəssislərinin diqqətini cəlb etdi. O, Azərbaycanın əməkdar məşqçisi Şamil Rzayevin gözündən yayınmadı. Gərgin məşqlər öz bəhrəsini verdi. Bir neçə ildən sonra onu institut yığma komandasının üzvü, bir qədər sonra isə ona etimad göstərib komandanın kapitanı seçdilər. Onu da qeyd edim ki, Oqtay böyük oğluna ilk sevimli məşqçisi Şamil Rzayevin adına qoyub. Bu da onun idman sahəsində yüksək mərhələyə çatmasında böyük əməyi olmuş məşqçisinə əbədi hörmətin əlamətidir. İnstitutdaxili yarışlar, spartakiadalar, Bakı şəhəri üzrə yarışlar, respublika ali məktəbləri üzrə birinciliklər, ən başlıcası isə 1967-ci ildə ölkənin bədən tərbiyəsi institutları arasında keçirilən ümumittifaq yay oyunları spartakiadası yarışları olmuşdu. Bu mötəbər yarış Ukraynanın paytaxtı Kiyev şəhərində keçirilmiş və Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun kişilərdən ibarət yığma komandası III yerə çıxmışdı. Təbiidir ki, bu yarışlarda Oqtay Axundovun da böyük xidməti olmuşdu. Qələbəyə görə komandanın bütün üzvlərinə bürünc jetonlar, qiymətli hədiyyələr verilmişdi. İnstitut rəhbərliyi voleybolçuların əməyini yüksək qiymətləndirmiş, onları fəxri fərmanlarla, müxtəlif mükafatlarla təltif etmişdi. 1967-ci ildə Oqtay institutu müvəffəqiyyətlə bitirib əsl mütəxəssis kimi doğma Şuşaya qayıtdı. Birbaşa Məşədi Əzizbəyov adına Şuşa Mədəni-Maarif Məktəbinə təyinat aldı. Elə həmin ildən də məktəbdə voleybol bölməsinə başçılıq etməyə başladı. Yenə də məşqlər başlandı. Tezliklə komanda rayon birinciliyinin qalibi, Qarabağ (Keçmiş Dağlıq Qarabağ) yarışlarında çempion oldu. Perspektivli oyunçulardan Əşrəf Hüseynov, Amil Əhmədov, Vaqif Sadıqov, İsa Qasımov, Zakir Mürsəlov, Əbülqasım Novruzov, Əfqan Abbasov, Ağa Zöhrabov və başqaları respublika birinciliyinin iştirakçıları oldular. Onlar Oqtay Axundovun rəhbərliyi ilə Qarabağ yığma komandasını təmsil etdilər. 1974-cü ildə Xankəndidə keçirilən I dəstə komandalarının iştirakı ilə respublika birinciliyi keçirildi. Yüksək dəstəyə keçmək üçün 8 komanda mübarizə aparırdı. Birinci və ikinci yerləri tutan komandalar yüksək dəstəyə keçmək hüququ qazanırdı. İkinci yer uğrunda keçirilən oyunda beşinci setdə 13-14 hesabı ilə Lənkəran komandası irəlidə idi. Amil Əhmədov topu oyuna daxil etdikdən sonra lənkəranlılar hücuma keçdilər. Onlar topu meydançanın bizə aid olan hissəsinə zərbə yox, aldadıcı hərəkətlə ötürdülər, yəni topu blokun üstündən torun qarşı hissəsinə atdılar. Topun yerə düşməsinə bir neçə santimetr qalmış, meydançanın 5-ci yerində dayanan komandanın kapitanı Oqtay Axundov gözəl tullanış edərək, daha doğrusu, bir neçə metr "uçaraq" topu çıxarandan sonra əllər yanda sinəsi üstə sürüşdü, topun yerə düşməsinə imkan vermədi. Çətin vəziyyətdən çıxan topu Əşrəf Hüseynov güclü zəbə ilə lənkəranlıların meydançasında boş yerə vurdu. Bütün zal ayağa qalxdı. Hamı Oqtayı alqışlayırdı. Bu hərəkət komandaya qələbə ruhu gətirdi. Hesab bərabərləşdi-14:14. Bundan sonra da asanlıqla iki xal qazanıldı. Bu qələbə demək idi. Həmin yarışlarda Oqtay Axundovun rəhbərlik etdiyi komanda II yerə çıxdı. Mükafatlandırma zamanı Oqtay Axundov "Ən texnikalı oyunçu" adına layiq görüldü və gümüş rəngli prizin sahibi oldu. (Onu da deyim ki, meydançada tullanaraq sinəsi üstə qollar yanda topu çıxaran oyunçular Şuşada üç nəfər olub. Birincisi Oqtay Axundov, ikincisi İsa Qasımov, o, Zaqatalada zona birinciliyində üçüncü -dördüncü yerlər uğrunda keçirilən yarışlarda təxminən üç metr tullanaraq, sinəsi üstə sürüşərək topun döşəməyə dəyməsinə imkan vermədi, həmin oyunda da qələbə çalıb, mükafatçılar sırasına çıxdıq. Üçüncüsü isə Şükür Nəsibovdur. Şükür Nəsibov da Xanlar rayonunda (indiki Göygöl) həmin hərəkəti ustalıqla, məharətlə yerinə yetirmişdir. Komanda qrup oyununda ikinci olmuşdu-Ə.N) Komandanın bütün üzvləri I dərəcəli idman normasını yerinə yetirdilər. Yüksək liqada isə yığma voleybol komandamız Sumqayıt şəhərində IV yerə çıxdılar. Bundan sonra komandamız bir neçə il ardıcıl Azərbaycan kuboku yarışlarında da, müvəffəqiyyətlə çıxış etdi. Oqtay Axundovun rəhbərliyi altında Şuşanın yığma voleybol komandası 1968-1978-ci illər ərzində 10 dəfə fasiləsiz Qarabağ çempionu və "Qarabağ" kubokunun sahibi olmuşdur. Bu, hələlik Qarabağ idmanı tarixində yeganə müvəffəqiyyətdir. Hal-hazırda bu gözəl, incə idman növü Şuşa rayon Təhsil Şöbəsi nəzdində fəaliyyət göstərən Uşaq Gənclər İdman Məktəbində də müvəffəqiyyətlə davam etdirilir.



Vilayət çempionları Şuşa komandası I-ci yer kubokla birlikdə. Soldan: Adil, Əşrəf, Əfqan, Samir, Ə.Oqtay, Mürsəlov Zakir, Mehdiyev Qaşəm Soldan ikinci: məşqçi Oqtay Axundovla birlikdə. Şuşa. 1970-ci il.



*Şuşa Pedaqoji məktəbin baş bədən tərbiyəsi müəllimi ltay Rüstəmov və həmin məktəbin voleybol üzrə məşqçisi Oqtay Axundov qızlardın ibarət voleybol komandası. Şuşa. 1970-ci il*

## Onu komanda yoldaşları "Malış" deyə, çağırırdılar

Oqtay Axundov müəllimlik fəaliyyəti ilə yanaşı, ictimai əsaslar üzrə voleybol məşqlərini təşkil edərək, texnikumun, həm də şəhərin oğlanlardan və qızlardan ibarət yığma komandalarını yüksək səviyyədə hazırlamışdı. Oqtay müəllimin hazırladığı məktəblilərdən ibarət komanda da tezliklə rayon və Dağlıq Qarabağ Muxtar Vilayətinin birinciliyində iştirak etmişdi. Hər iki komanda ilk dəfə çıxış etmələrinə baxmayaraq qalib adını qazanmışdılar.

Oqtay Axundov tək məşqçilik fəaliyyətində deyil, o, bir idmançı kimi də, öz sözünü hələ gənc yaşlarında demişdi. Oqtay gənc yaşlarından Şuşa yığma komandasının tərkibində oynayarkən "Malış" ləqəbi almışdır. Oyunçu yoldaşları oyunun ən çətin anlarında "Malış" deyə qışqıranda Oqtay vurulan topları qəbul edib, komandanı çətinlikdən və məğlubiyyətdən xilas edirdi.

Oqtay Axundov yeganə azərbaycanlı olub ki, DQMV-nin yığma komandasının tərkibində bir sıra mötəbər yarışlarda iştirak edib. Oqtay hələ məktəbdə oxuduğu vaxt DQMV-nin yığma komandasının tərkibində respublika birinciliyində dəfələrlə iştirakçı olub.

Oqtay Axundovun hazırladığı Şuşa yığma voleybol komandası 1971-1972-ci illərdə vilayətin təmsil edərək respublika birinciliyinin ikinci liqasında çıxış edib və bütün komandalara qalib gələrək yüksək liqaya vəsiqə alıb.

Oqtay Axundovun komandası 1973-cü ildə Naxçıvanda I-IV yerlər uğrunda, 1974-cü ildə isə Sumqayıt şəhərində yüksək liqanın respublika birinciliyində iştirak edir və mükafatçılar sırasında olub.

1974-cü il Azərbaycanın voleybol üzrə yığma komandası İranda yoldaşlıq görüşü keçirir və oradan qayıdarkən Naxçıvandan keçərək Şuşaya gəlirlər. Komandanın baş məşqçisi Şamil Rzayev başda olmaqla bütün komanda üzvləri Oqtay müəllimgilə gəlirlər və Oqtayın anasından razılıq almaq istəyirlər ki, onu yığma komandaya götürsünlər. Lakin onun anası Məntüqə xala razılıq vermir və deyir ki, Oqtay evin tək övladıdır, bir neçə ildir ki, ailə qurub, onun köməyinə ehtiyacımız var.

Oqtay Axundov bütün bu işləri ilə yanaşı, bir sıra mötəbər yarışlarda öz hakimlik qabiliyyətini və bacarığını da göstərib. Oqtay müəllim hakimlik bacarığına və bir aylıq kurs keçdiyinə görə respublika dərəcəli hakim adını almışdı. Eləcə də, Oqtay müəllim işlədiyi illərdə bir sıra təkmilləşdirmə kurslarında olmuşdu. O, 1982-ci ildə "Turizmin təşkili və təşkil olunması", 1987-ci ildə isə "Sosializm yarışının qalibi" vəsiqələrini almışdı. Oqtay Axundov 1991-ci ildə Azərbaycanın "Bədən Tərbiyəçisi və İdman Əlaçısı" döş nişanına layiq görülmüşdü.

Amansız Qarabağ hadisələri Vətənini sonsuz məhəbbətlə sevən qeyrətli oğullar kimi, Oqtay Axundov da voleybol topunu silahla əvəz etməli oldu. O, 1988-ci ildən 1992-cü ilə kimi hərbçiyə xas olan əzmkarlıqla doğma Vətənimizi müdafiə etdi. Qeyri-bərabər döyüşlərdə özünü müdafiə dəstələri ilə birlikdə neçə-neçə strateji əhəmiyyətli yüksəklikləri düşməndən azad etdi, yaralı əsgərlərimizi hərbi hospitallara çatdırdı. Lakin xəyanət nəticəsində işğal olunan doğma şəhəri Şuşanı bir komandir kimi sağ qalmış əsgərlərlə birlikdə tərk etdi...

Bu gün yaşının 70-i keçməsinə baxmayaraq, hamı onu sevir, ona böyük hörmət və ehtiram göstərir. Saf və xoş xasiyyətə malik olan bu gözəl insan ahıl illərini yaşayır. Onun nümunəvi ailəsi var. Şuşanın ən sayılan ziyalı ailələrindən biridir.

Şuşa rayon ictimaiyyəti içərisində böyük hörmətə malik olan Oqtay Axundov yaxın gələcəkdə doğma Şuşamıza hamı kimi qayıdacağı günü səbrsizliklə gözləyir...

***Əbülqasım Novruzov***
***Şuşa Uşaq Gənclər İdman-Şahmat Məktəbinin Direktoru***

# İstanbulda üç qızıl medal sevinci

İstanbulda karate üzrə doqquzuncu şotokan dünya çempionatı keçirilib. "Şobu İppon", "WKF kumite" və "sambom kumite" versiyaları üzrə keçirilən yarışda 31 ölkənin idmançıları iştirak ediblər.




Məşqçilər Əli Rəcəbov və Orxan Şabanovun rəhbərliyi ilə ölkəmizi təmsil edən "Qaraqaplan" klubunun idmançıları Mədinə Kazımova (25 kq-dan yuxarı) və Yusif Cəfərov (30 kq) bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Digər təmsilçimiz Orxan Musayev isə komanda kumite yarışlarında birinci olub.

# Komandamız təlim-məşqdə iştirak edir

Mayın10-13-də Serbiyanın Novı Sad şəhərində keçiriləcək Avropa çempionatına hazırlaşan milli komandanın üzvləri Şəkidə təlim-məşqlərə başlayıb. Olimpiya kompleksində hazırlıqlar bir həftə davam edəcək. Milli komandanın baş məşqçisi Şahin Xudaverdiyevin (kumite) və Vahid Ayvazovun (kata) rəhbərliyi altında təlim-məşq toplanışında qadınların böyük məşqçisi Anar Allahverdiyev, məşqçilər Seymur Hüseynov, Qurban Tağıyev, Rəşad Hüseynov, Denis Morozov və fiziki hazırlıq üzrə məşqçi Oqtay Məmmədovla birgə gün ərzində üç dəfə keçirilir.

Bir həftəlik toplanışda həmçinin federasiyanın baş hakimi və beynəlxalq hakim Cahangir Babayevin rəhbərliyi ilə yarış qaydalarında dəyişikliklər və turnirlərdə qayda pozuntularına dair seminar, həmçinin idmançıların çıxışlarından hazırlanmış gündəlik xüsusi analitik məşqələlər nəzərdə tutulub. İdmançılar qitə çempionatına son hazırlıqlarını mayın ilk günündən paytaxtadakı təlim-məşq bazasında keçəcək. Milli komanda Serbiyada Avropa çempionatına mayın 8-də yollanacaq. Karateçilərimiz qarşıdakı nüfuzlu turnirin kumite və kata üzrə həm fərdi, həm də komanda yarışlarında çıxış edəcək.

# NTD çempion oldu

Texniki Universtitetin idman zalında basketbol üzrə kişilər arasında keçirilən 25-ci ölkə birinciliyinin qalibi müəyyənləşib.

Üçüncü yer uğrunda ilk qarşılaşmada ADNSU-nin komandası "80-lər"dən əvvəlki məğlubiyyətin əvəzini çıxa bildi - 86:79 (seriyada hesab bərabərləşdi 1-1). Bürünc medalların sahibi əlavə oyunda müəyyən ediləcək.

İkinci qarşılaşmanı basketbol azarkeşləri səbirsizliklə gözləyirdi. Qızıl medalların taleyini həll edən bu oyunda hamı AZTOP-un məğlubiyyətin əvəzini çıxacağına ümid edirdi. Amma NTD oyunun ilk dəqiqələrindən AZTOP-a heç bir şans vermədi. Təcrübəli Zaur Paşayevin komandası rəqibini həm hücumda, həm də müdafiədə üstələyərək Azərbaycan çempionu titulunu qazandı 78:60 (seriyada hesab 2:0).



# FUTBOL

*Çempionlar Liqası artıq final mərhələsinə yaxınlaşır. Finala gedən yolda cavab qarşılaşmalarından sonra həlledici mərhələyə kimlərin vəsiqə qazanacağı müəyyənləşəcək. Proqnoz verməksə son görüşlərdən sonra çox çətindir.*

## Çempionlar Liqası: nəhənglərin soyuq mübarizəsi

### *Finala gedən yolda hələ də aşkar favorit yoxdur*



Desək ki, “Liverpul” “Roma”nın qapısına 5 top vurub, rahatdı, məntiqə uyğun olmaz. İtaliyalılar “Dumanlı Albion”da iki top vurub, paytaxta qayıtdılar. Bu o deməkdir ki, “Olimpiko” stadionunda “qladiatorlarla” döyüşmək çətin olacaq. İki top bu mərhələdə böyük ümiddən xəbər verir. Onu da unutmaq olmaz ki, “Liverpul”da Salah kimi yeni tapıntı var. O mümkün olmayan şəraitdə qol vurmağı bacarır. Lakin təcrübə də əsas amildir. Yəni nə qədər top vurmağı bacaran futbolçu olursa olsun, məşqçidən və komandanın əzmindən çox şey asılıdır. Yarımfinalda azarkeşlər bunu öz gözləri ilə gördülər. 5 qoldan sonra Salah meydanı tərk etdi. “Roma” qalan vaxtda 2 dəfə qol vurdu. Bu o demək deyil ki, Salahın yoxluğuna görə belə nəticə oldu. Sadəcə Yurgen Klop arxayınlaşdı. Futbol isə 90 dəqiqə oynanılır. Hər hücumda bir qol imkanı var. Deməli, nə qədər güclü futbolçulara malik olsa da, hesabda böyük fərq olsa da arxayınlaşmaq mümkün deyil. Müasir futbol taktika və əks hücumlar üzərində qurulub. Bunu bilməyən məşqçinin və komandanın böyük turnirlərdə çıxış etməsi məsləhət deyil. Gələn həftə hər şey öz təsdiqini tapacaq. Ya “Liverpul” uzun müddət həsrət qaldığı final həyəcanını yaşayacaq, ya da ki “Roma” “Barselona” ilə görüşdəki nəticəni təkrarlayacaq.

24 aprel

**“Liverpul” (İngiltərə) - “Roma” (İtaliya) - 5:2**

**Qollar:** Salah, 36, 45, Mane, 56, Firmino, 61, 69 - Ceko, 81, Perotti, 85 (pen.)

**Baş hakim:** Feliks Brix (Almaniya)

***Liverpul, “Enfild Roud” stadionu***

**“Liverpul”:** Karius, Aleksander-Arnold, Lovren, Van Diyk, Robertson, Oksleyd-Çemberleyn, Henderson, Milner, Salah, Firmino, Mane

**“Roma”:** Alisson, Fazio, Manolas, Jesus, Florenzi, De Rossi, Strootman, Kolarov, Naynqolan, Cengiz, Ceko

İkinci yarımfinalçıların görüşündə rəqiblər bir-birini çox yaxşı tanıyırdılar. “Bayern Münhen” vaxtından əvvəl bundesliqanın qalibi olub, bütün diqqətini ÇL-in finalına yönəldib. Lakin rəqibi “Real” La liqadan “əlini üzsə də”, iki əllə iki ildir ki, heç kimə güzəştə getmədiyi Çempionlar Liqası kubokundan bərk yapışıb. Bu cütlüyün ilk görüşündə “Bayern”in bir qədər bəxti gətirmədi. Robbenin və Boatenqin vaxtından əvvəl zədələnməsi klubu aciz vəziyyətə saldı. Almaniyada hesabda irəli olan komanda qələbəni məcburiyyətdən itirməli oldu. Onu məcbur edən isə madridlilər idi. Hər zaman Ronaldonun vurduğu qollarla qələbə qazanan “Kral klubu” fərqli futbolçuların səyi nəticəsində səfərdə iki topla qələbə qazandı. Madridə yollanan komanda “Bayern”i “Santyaqo Bernabeu”da gözləyir. Hər şey mayın ilk həftəsinin, ilk günlərində müəyyənləşəcək.

25 aprel

**“Bayern” (Almaniya) - “Real” (İspaniya) - 1:2**

**Qollar:** Kimmix, 28 - Marselo, 44, Asensio, 57

**Baş hakim:** Byörn Kuypers (Hollandiya)

***Münhen, “Alyans Arena”***

**“Bayern”:** Ulrayx, Rafinya, Boatenq, Hummels, Kimmix, Xavi Martines, Hames Rodriges, Müller, Robben, Levandovski, Riberi

**“Real”:** Navas, Karvahal, Ramos, Varan, Ronaldo, Kroos, Modriç, Marselo, Kazemiro, Vaskes, İsko.






Rusiyada keçiriləcək futbol üzrə dünya çempionatına 48 gün qalır. 4 ildən bir keçirilən ən böyük futbol bayramında 32 komanda ən güclünü müəyyənləşdirəcək. Yekunda yalnız bir yığma komanda dünya kubokunu qaldıracaq. Həmin komandanın adı isə finalda müəyyənləşəcək. “Olimpiya dünyası” qəzeti öz sadiq oxucularına dünya çempionatı ilə bağlı maraqlı yazıları təqdim etməkdə davam edir. Bu sayımızda finala vəsiqə qazanan komandalar barəsində maraqlı statistikanı çap edirik. Yazıda yığma komandaların təsnifat mərhələlərində göstərdiyi nəticələr yer alıb.

## Seçilmişlərin seçilən xüsusiyyətləri və ya 32 komandanın sərgüzəşti

**İspaniya**

- Millinin üzvü Alvaro Morata hücumu uğurla həyata keçirən ən yaxşı futbolçu sayılır. O, meydanda keçirdiyi 220 dəqiqə ərzində 7 qol vəziyyəti yaradıb. Bu da orta göstərici ilə 2,8 faiz təşkil edir.

- İspaniya Avropada yeganə komandadır ki, oyun ərzində 800 qol ötürməsi edir. Bu nəticə qitə üçün ən yaxşı göstəricidir- 91 faiz.

**Mərakeş**

- Mərakeşlilər təsnifat mərhələsində ən çox uzun ötürmələr edən futbolçulara malikdir- 49 ötürmə. Bu nəticə Afrika qitəsindən dünya çempionatına vəsiqə qazanan yığma komandalar arasında ən yaxşı göstəricidir.

- Mərakeşlilər bu müddət ərzində 45 dəfə yoldaşlıq oyunu keçirdiblər ki, bu nəticə ilə təkcə Nigerdən geri qalırlar - 46 matç.

### A qrupu

**Rusiya**

- Çempionata ev sahibliyi edən komanda yoldaşlıq görüşlərində 47 futbolçunu sınaqda keçirib. Heyətdə ən stabil futbolçular İqor Akinfeyev, Fyodr Kudryaşov və Aleksandr Səmədov olub. Həmin futbolçular meydanda təxminən 1000 dəqiqə çıxış ediblər.

**Səudiyyə Ərəbistanı**

- Bu yığma komanda təsnifat mərhələsində 8 dəfə onbirmetirlik cərimə zərbəsi qazanıb ki, onların da hər birini uğurla yerinə yetirib. Bu rəqəm təkcə Asiya mərhələsinə aiddir.

- Məhəmməd əl Səhlavi yığma komandanın tərkibində 16 qol vurub. O, bu nəticə ilə Asiyanın ən məhsuldar futbolçusu sayılır.

**Misir**

- Misir yığma komandası Afrika qitəsində sürəti və ötürmələri ilə liderlik edir. Hesablamalara görə misirlilər 1 dəqiqə ərzində 15,1 dəqiq ötürmə edir.

- Heyətin futbolçusu Məhəmməd Elneni yeganə futbolçudur ki, təsnifat mərhələsinin bütün qarşılaşmalarında iştirak edib. Mərkəz yarımmüdafiəçisi Afrikanın 3 ən yaxşı dəqiq ötürmə edən futbolçusudur- 446 (90 faiz dəqiq)

**Uruqvay**

- Luis Suares vurduğu qollarına və ötürmələrinə görə təsnifat mərhələsində (12,5 +7) təkcə Neymardan geri qalır.

- Yığma komanda standart vəziyyətlərdən 14 dəfə fərqlənib. Bu isə Cənubi Amerika qitəsi üçün ən yaxşı göstərici sayılır.

- Milli komandanın futbolçuları dəqiq ötürmələrə görə Cənubi Amerikada ən aşağı göstəriciyə malikdir - 75 faiz.

### B qrupu

**Portuqaliya**

- BU komandada Kriştianu Ronaldu ən çox rəqib qapısına zərbə vuran oyunçulardandır. O, 9 matçda rəqib qapılarına 66 zərbə vurub.

- Portuqaliyalılar Avropada ən az mübarizə aparan yığma komandaya malikdirlər - 57 faiz.

- Onlar qitədə ən çox hava ötürmələri edən ( 26 matçda) heyətə malikdir.

**İran**

- Yığmanın futbolçusu Sərdar Azmun təsnifat mərhələsində ən çox qol vuran hücumçulardandır - 11 qol. Bundan əlavə o, milli komandanın rəqib qapılarından keçirdiyi topların 42 faizində iştirak edib.

- Milli komanda cərimə meydançasındakı, mübarizədə təkbətək hücumların 73 faizini uğurla həyata keçirib.

### C qrupu

**Fransa**

- Yığmanın üzvü Antuan Qrizman rəqib qapısına ən çox zəbə vuran futbolçudur - 29. Seçmə mərhələdə futbolçu ən yaxşı ötürmə edib qol vuran hücumçulardandır - 4+4. O, komandanın təşkil etdiyi qol vəziyyətlərindən 10 dəfə fərqlənib.

- Fransa millisi Avropada rəqib meydançasında topu ələ keçirən ən yaxşı yığmadır- 15.

**Avstraliya**

- Tim Kehil seçmə mərhələdə ən çox top vuran futbolçudur - 11 qol. Orta göstərici ilə 90 dəqiqəyə 1,2 qol düşür. Avstraliya Asiyada standart vəziyyətləri uğurla həyata keçirən yeganə komandadır - 18 qol. Belə ki, komanda vurulan qolların 5 faizini küncdən ötürmədən, 8 faizini isə cərimə zərbəsindən həyata keçirib.

**Peru**

- Yığma komandanın futbolçuları keçirdikləri görüşlərin təxminən 14,3 faizində qayda pozuntusu edən yeganə milli yığmadır. Seçmə mərhələdə onlar 6 dəfə onbirmetrlik cərimə vəziyyəti ilə rastlaşıblar. Onlardan 3 öz qapılarına, qalanı isə rəqib qapısına təyin olunub. Penalular yerinə yetirdikləri onbirmetrlik cərimə zərbələrinin hər 3-nü rəqib qapısının sağ küncünə yönəldiblər

**Danimarka**

- Bu yığma komanda təsnifat mərhələsində keçirdikləri görüşlərdə ən çox uzun ötürmə edən yeganə komandadır - 32. Komanda DÇ- 2018-ə vəsiqə qazanan Avropa milliləri arasında başla oynayan yığmadır.

ardı var...



## “Qəbələ” komandası “Bakcell U-17 Liqası”nın qalibi oldu

“Qəbələ” Futbol Akademiyası 2017-2018-ci illər mövsümündə ilk titulunu qazanıb. “Qəbələ”nin 17 yaşınadək futbolçulardan ibarət komandası AFFA-nın təşkil etdiyi “Bakcell U-17 Liqası”nın çempionu olub. “Qırmızı-qaralar” qızıl medalları XXIX turda rəsmiləşdirib. Öz meydanında “Zirə”yə 3:0 hesabı ilə qalib gələn “Qəbələ” yarışın sonuna 4 tur qalmış çempionluğu təmin edib. Keçirdiyi 29 matçda 23 qələbə qazanıb, 4 heç-heçə edib, 2 dəfə məğlub olan komanda 101 qol vurub, 17-ni buraxıb. 73 xala malik “Qəbələ” ən yaxın izləyicisi “Neftçi”ni 12 xal qabaqlayır. Şəxsi oyunlardakı üstünlük (1:1, 4:0, 0:1) “qırmızı-qaralar”a 4-cü dəfə U-17 Liqasının çempionluğunu yaşadıb.

Xatırladaq ki, “Qəbələ” 2009-2010-cu, 2012-2013-cü və 2014-2015-ci illər mövsümlərində də bu liqanın qalibi olub.

## Avropadan 9, Avstraliyadan 1

Rusiyada keçiriləcək dünya çempionatına yollanacaq baş hakimlər müəyyənləşib. Mundialın matçlarını 25 referi idarə edəcək.

Belə ki, ali futbol qurumu Rusiyaya yollanacaq bütün baş hakimlərin adlarını açıqlayıb. Həmin referilər aşağıdakılardır:

**Avropa (9):** Cüneyt Çakır (Türkiyə), Byorn Kuypers (Hollandiya), Canluka Rokki (İtaliya), Damir Skomina (Sloveniya), Yonas Eriksson (İsveç), Antonio Mateu Lahoz (İspaniya), Şimon Marçinyak (Polşa), Feliks Brix (Almaniya), Milorad Maziç (Serbiya)

**Cənubi Amerika (5):** Sandro Rikki (Braziliya), Nestor Pitana (Argentina), Uilmar Roldan (Kolumbiya), Enrike Kaseres (Paraqvay), Julio Baskunyan (Çili)

**Asiya (4):** Ravşan İrmatov (Özbəkistan), Alireza Faqani (İran), Navaf Şukralla (Bəhreyn), Ryuji Sato (Yaponiya)

**Afrika (3):** Bakari Qassama (Qambiya), Yanni Sikazve (Zambiya), Qehad Qrişa (Misir)

**Şimali Amerika (3):** Mark Geyqer (ABŞ), Joel Akvilar (Salvador), Sezar Ramos (Meksika)

**Avstraliya (1):** Matt Konqer (Yeni Zelandiya)

## Luis Enrike “Arsenal”ın yeni baş məşqçisi ola bilər

“Arsenal”ın baş məşqçisi Arsen Venqer istefa verəcəyi tarixi açıqlayıb. Bu barədə fransalı məşqçi London klubunun rəsmi saytına açıqlamasında deyib. “Klubla müzakirələrdən sonra, hesab edirəm ki, mövsümün sonunda istefa verməyim düzgün addım olar. Burda unudulmaz anlar keçirdim. Komandanı tam məsuliyyətim və düzgünlüyümlə idarə etdim. Məşqçilər heyətinə, oyunçulara, klub direktorlarına və azarkeşlərə təşəkkür etmək istəyirəm. Azarkeşlərimizi komandanın arxasında durmağa çağırıram. Sevgim və dəstəyim həmişə bu klub üzərində olacaq”.

Qeyd edək ki, Arsen Venqer “topçular”ı 22 ildir ki çalışdırır. O, 1996-cı ildə bu komandanın sükanı arxasına keçib. Onun rəhbərliyi ilə “Arsenal” üç dəfə Premyer liqa çempionu, yeddi dəfə İngiltərə kubokunun və superkubokunun sahibi olub.

Arsen Venqerin istefasından sonra London klubuna “Barselona”nın sabiq baş məşqçisi Luis Enrikenin gətiriləcəyi planlaşdırılır.

İspaniyalı məşqçinin London klubunun rəhbərliyi ilə yaxşı əlaqələri var. Enrikenin təyinatı ilə bağlı yeganə problem mütəxəssisin yüksək maliyyə şərtləri olub. O, Vengerdən az maaş almaq niyyətində deyil.

Qeyd edək ki, Luis Enrike 2014-2017-ci illərdə “Barselona”nın baş məşqçisi olub. Onunla komanda iki dəfə La Liqa çempionu, üç dəfə İspaniya kuboku və bir dəfə Çempionlar Liqasını qazanıb.

# DÜNYA idmanı








## 50 milyon dollarlıq döyüş

WBC versiyası üzrə ağır çəki dərəcəsində dünya çempionu Deonti Uaylder Entoni Çeşuanı təkbətək döyüşə çağırıb.

Məlumat üçün bildirək ki, Entoni Çeşua İBF, WBA və WBO kəmərlərinin sahibdir.

Deonti Uaylder döyüş üçün rəqibinə 50 milyon dollar vəd edib. O, döyüşün Las-Veqasda keçirilməsini təklif edib. Bu boksçu hesabındakı 40 qələbədən 39-nu nokautla qazanıb. Antoni Çeşua isə karyerasında 21 dəfə qalib gələb və onun 20-ni nokautla əldə edib.

## FİA-nın iddiası yoxdur

Beynəlxalq Avtomobil Federasiyasının (FİA) texniki nümayəndəsi Çarli Uaytinqin sözlərinə görə, FİA "Ferrari" maşınlarındakı güclü tüstülənmə problemi ilə bağlı məsələyə münasibət bildirməyəcək.

Məlumat üçün bildirək ki, "Mersedes" komandasının qeyri-icraçı direktoru Niki Lauda beynəlxalq quruma müraciət edərək "Ferrari" bolidlərinin havaya həddindən çox tüstü buraxması ilə bağlı şikayət edib.

FİA-nın texniki nümayəndəsi isə bunun cavabında deyib: "FİA-nın "Ferrari"yə qarşı heç bir iddiası yoxdur. Yağın işlənməsi norma çərçivəsindədir və tüstülənmə ilə bağlı məsələ federasiyanın nəzarətində deyil".

## Döyüşçüyə 1 milyon deyib, 530 min ödədilər

UFC çempionu olan Habib Nurmaqomedov indiyədək karyerasında heç vaxt sahib olmadığı qonorar - 1 milyon dollar qazanıb. Əslində, ona cəmi 530 min dollar ödənilib.

UFC-nin rəsmi məvacibi kifayət qədər şərtidir. Promouter qonorarı nömrəli turnirlərin əsas döyüşçülərinə FOX telekanalı ilə ödənişli yayımdan faiz ödəyir və bu məbləği açıqlamır. Faiz məbləği döyüşün əhəmiyyətliliyindən asılı olaraq dəyişir və ayrıca danışılır. Beləliklə, döyüşçülərdən heç biri başqasının hansı məbləğdə faiz alacağını bilmir.



Nəticədə, UFC-nin Habib Nurmaqomedova Yakvintaya qarşı çempion titulu uğrunda döyüşdə 530 min dollar ödədiyi məlum olub.

## Misirli futbolçuya kraldan böyük jest




"Liverpul" klubunun misirli hücumçusu Məhəmməd Salah İngiltərə Peşəkar Futbolçular Assosiasiyasının (PFA) versiyası üzrə Premyer Liqada cari mövsümün yekunlarına görə, ən yaxşı oyunçu seçilib. İngiltərə Premyer Liqasının cari mövsümündə 25 yaşlı hücumçu 33 oyuna 31 qol vurub və 9 məhsuldar ötürmə edib. Fəxri mükafata Kevin De Brüyne ("Mançester Siti"), David De Xea ("Mançester Yunayted"), Harri Keyn ("Tottenhem"), Leroy Sane ("Mançester Siti") və David Silva ("Mançester Siti) da iddia ediblər.

Salah bu mükafatı alan dördüncü oyunçudur ki, bir mövsümə 31 qol vurub.

Bu mükafata görə Səudiyyə Ərəbistanının kralı Salman bin Əbdüləziz Al Səud misirli futbolçu Məhəmməd Salaha böyük jest edib. Belə ki, Məhəmməd Salaha cari mövsümün ən yaxşı oyunçusu seçildiyi üçün müsəlmanların müqəddəs şəhəri Məkkədə torpaq sahəsi hədiyyə edilib. Bu haqda Məkkə şəhərinin bələdiyyə rəisi Faxd ər-Rouki bildirib. O qeyd edib ki, bu hədiyyə, eyni zamanda, futbolçuya müsəlman gənclərinə yaxşı örnək olduğu üçün verilib.

## İqor Tüdor karyerasını İtaliyada davam etdirəcək

"Qalatasaray"ın sabiq məşqçisi İqor Tüdor karyerasını İtaliyada davam etdirəcək. Belə ki, xorvatiyalı mütəxəssis "Udineze"nin baş məşqçisi təyin olunub.

O, bu vəzifədə bir müddət əvvəl istefaya göndərilən Massimo Oddonu əvəzləyib. 40 yaşlı məşqçi klubla 2018-2019 mövsümünün sonuna kimi müqavilə imzalayıb. Qeyd edək ki, İqor Tüdor ötən ilin sonlarında "Qalatasaray"dan istefaya göndərilmişdi.

## Mariya Şarapova məşqçisindən ayrılıb



Mariya Şarapova hazırkı məşqçisi Sven Qrenefeldlə yollarını ayırıb. Hollandiyalı məşqçinin rəhbərliyi altında rusiyalı tennisçi çox mühüm uğurlara imza atıb. Belə ki, o, bu müddət ərzində 7 dəfə fəxri kürsünün birinci pilləsində yer alıb. Ayrılığa səbəb kimi tanınmış tennisçinin dopinqlə bağlı diskvalifikasiya edilməsi və karyerasında müəyyən dəyişiklər göstərilir.

Bu həftədən başlayaraq Mariya Şarapova keçmiş məşqçisi, isbeçli Tomas Hoqstedlə işləməyə başlayacaq.

* * *

Qadın tennisçilər arasında keçirilən "İstanbul Cup" turniri davam edir. 3 nömrəli favorit Aqneşka Radvanska ilk turda mübarizəni dayandırıb. Radvanska birinci turda Donna Vekiçlə qarşılaşıb. İlk setdə 1:6 hesabı ilə məğlub olan polşalı raket ustası ikinci setdə 0:2 hesabı ilə geri düşdükdən sonra belindəki zədəni səbəb göstərərək, oyundan imtina edib. Nəticədə Donna Vekiç ikinci tura vəsiqə qazanıb.

Qeyd edək ki, Aqneşka Radvanska 2008-ci ildə "İstanbul Cup"da çempionluq sevinci yaşamışdı.

* * *

Kişi tennisçilər arasında keçirilən "Barcelona Open"də mübarizə davam edir. Turnirdə 1/16 final mərhələsinə yekun vurulub.

Dünya bir nömrəsi Rafael Nadal həmyerlisi Roberto Karbalyes Baznanı 1 saat 55 dəqiqə sürən mübarizə sonunda məğlub edərək, adını 1/8 finalçılar sırasına yazdırıb.

ATP reytinqinin sabiq lideri Novak Cokoviç isə uğursuz çıxışını davam etdirir. Serbiyalı raket ustası Martin Klijana uduzaraq, mübarizəni dayandırıb.

Mükafat fondu 2 milyon 324 min 905 avro olan "Barselona Açıq" turnirinə aprelin 29-da yekun vurulacaq.

## NBA-da pley-of mərhələsinə start verilib

Milli Basketbol Assosiasiyasının (NBA) çempionatında pley-off mərhələsinin ilk turu keçirilir.

Şərq konfransında müntəzəm çempionatı lider kimi tamamlayan "Toronto Reptors" "Vaşinqton Vizards" üzərində üçüncü qələbəsini qazanaraq, seriyada üstünlüyü yenidən ələ alıb. "Klivlend Kavalyers" isə Lebron Ceymsin son saniyə basketi sayəsində "İndiana Peysers"i məğlub edib.

Qərbdə də iki görüş oynanılıb. Matçın gedişində böyük fərqlə geri düşməsinə baxmayaraq, "Yuta Caz" üzərində qələbə qazanmağı bacaran "Oklahoma-Siti Tander" seriyanı ən azı bir matç daha uzadıb. Müntəzəm çempionatı konfrans birincisi kimi bitirən "Hyuston Rokets" isə "Minnesota Timbervulvz" üzərində dördüncü qələbəsini qazanaraq, mərhələ adlayıb.

## Son 3 saniyədə...



Əfsanəvi basketbolçu Lebron Ceyms 5-ci qələbə matçının pley-off mərhələsinin ilk raundunda "İndiana" ilə mübarizədə 44 xal toplayıb, 8 ötürmə edib. NBA-nın "Klivlend" komandasının forvardı bu dəfə də fərqlənməyi bacarıb.

"Klivlend" komandası "İndiana" klubunu 98:95 hesabı ilə məğlubiyyətə uğradaraq ilk dəfə irəli çıxıb. 95:95 hesablı oyunun bitməsinə 3 saniyə qalmış Lebron Ceyms səbətdən qələbəni təmin edən 3 topu keçirməyə müvəffəq olub.

## Ata oğlunu siyahıya saldı

İtaliya Futbol Federasiyası 58 yaşlı Karlo Ançelottinin yığmaya təyinatı məsələsini müzakirə edib.

Karlo Ançelotti isə öz növbəsində texniki heyətində yer almasını istədiyi adamların siyahısını federasiyaya təqdim edib. Təcrübəli məşqçi təqdim etdiyi köməkçi-məşqçilərinin siyahısında oğlu - Davide Ançelottinin da adı var.

Qeyd edək ki, 27 yaşlı Davide Ançelotti əvvəllər atasının rəhbərliyi altında PSJ, "Real" və "Bavariya" kimi komandalarda məşqçilik edib.

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19